19 iyul 2024 №54 (2119)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## "Azərbaycan etibarlı tərəfdaşdır"

### Prezident "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısında iştirak edib




Prezident İlham Əliyev Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin dəvəti ilə "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısında iştirak etmək üçün iyulun 18-də İngiltərəyə işgüzar səfərə gedib.

Zirvə toplantısı Oksford şəhərində keçirilib.

Oksforddakı Blenheim sarayında dövlətimizin başçısını Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmer qarşılayıb.

İyulun 18-də "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısının açılış plenar sessiyası keçirilib. Prezident İlham Əliyev tədbirdə iştirak edib. Plenar sessiya başa çatandan sonra iştirakçılar birgə foto çəkdiriblər.

Azərbaycan Prezidenti "Avropa Siyasi Birliyi"nin 4-cü Zirvə toplantısı çərçivəsində "Enerji və bağlantı" mövzusunda dəyirmi masada iştirak edib. Dövlətimizin başçısı tədbirdə çıxış edib.

Prezident vurğulayıb ki, enerji sahəsində Bakıda müəyyənləşdirdiyimiz strateji tərəfdaşlıq bizim Avropaya qaz təchizatımızın 2027-ci ilin sonuna qədər ikiqat artırılmasını nəzərdə tutur: "Biz bu hədəfə doğru irəliləyirik. 2021-ci ildə Avropa qitəsinə bizim qaz təchizatımız ildə 8 milyard kubmetr təşkil edirdisə, bu il bu göstərici 13 milyard kubmetrə yaxın olacaq. 2021-ci ildə ümumi ixrac 18 milyard kubmetr təşkil edirdisə, bu il bu göstərici 25 milyard kubmetr olacaq. İxracın yarıdan çoxu Avropaya gedir".

Diqqətə çatdırılıb ki, Azərbaycanın təbii qazını səkkiz ölkə alır, onlardan beşi – Bolqarıstan, Yunanıstan, İtaliya, Macarıstan və Rumınıya Avropa İttifaqının üzvüdür. İkisi İttifaqa daxil olmaq üçün namizəd ölkədir – Gürcüstan və Serbiya, eləcə də Türkiyə. Ümid edirik ki, biz bir neçə aya Sloveniya bazarına daxil ola biləcəyik.

"Avropa Komissiyası Azərbaycanı enerji üzrə etibarlı tərəfdaş və ümum-Avropa qaz təchizatçısı adlandırmışdır. Bu, çox böyük məsuliyyətdir və əlbəttə ki, biz yalnız Avropaya 2027-ci ilə qədər ildə 20 milyard kubmetr qaz tədarük etmək üzrə öz öhdəliyimizi yerinə yetirmək üçün əlimizdən gələni etməyə çalışırıq", – deyə İlham Əliyev vurğulayıb.

Prezident İlham Əliyev iyulun 18-də "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısının bağlanış plenar sessiyasında iştirak edib.

Dövlətimizin başçısı toplantı çərçivəsində bir sıra işgüzar görüşlər də keçirib.

*mövzunun davamı səh. 2-də*

## "ANAMA" filminin təqdimatı keçirilib

İyulun 18-də Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) yaranmasının 26-cı ildönümü tamam oldu. 1998-ci ildə Prezident Heydər Əliyevin sərəncamı ilə Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyi təsis edilib. 2021-ci ildə Prezident İlham Əliyevin fərmanı ilə agentliyin bazasında publik hüquqi şəxs statuslu Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) yaradılıb.

Hazırda ANAMA-nın başlıca məqsədi işğaldan azad edilən əraziləri mina və partlamamış hərbi sursatlardan təmizləməkdir.

Qurumun 26 yaşı Nizami Kino Mərkəzində "ANAMA" tammetrajlı sənədli filminin təqdimatı ilə qeyd edilib.

*davamı səh. 3-də*

# Şuşada söz-sənət büsatı – Vaqif Poeziya Günləri

### Qarabağda suverenliyimizin tam bərpasından sonra bu büsatın dəyəri daha dərindir

Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 17-19 iyul tarixlərində Şuşa şəhərində Vaqif Poeziya Günləri keçirilir.



İyulun 18-də Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin qarşısında poeziya bayramının açılışı olub.

Açılış mərasimində dövlət və hökumət nümayəndələri, respublikanın tanınmış ədəbiyyat, elm və mədəniyyət xadimləri, eləcə də bu ilin may ayında doğma yurda köçmüş Şuşa sakinləri iştirak ediblər.

Azərbaycan Yazıçılar Birliyinin (AYB) birinci katibi Xalq yazıçısı Çingiz Abdullayev çıxış edərək Şuşada belə bir möhtəşəm tədbirdə iştirakından məmnun olduğunu söyləyib. Bildirib ki, builki Vaqif Poeziya Günləri bir çox mühüm əlamətdar hadisələrlə üst-üstə düşür: "Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpa edilməsindən sonra keçirilən ilk poeziya bayramıdır. Bundan əlavə, Şuşa şəhəri 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" missiyasını yerinə yetirir. Bu il həmçinin dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 530, Azərbaycan Yazıçılar Birliyinin isə 90 illik yubileyləridir. Builki tədbirdə Yazıçılar Birliyinin 100-dən çox üzvü iştirak edir".

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Molla Pənah Vaqifin yaradıcılığından söz açıb. Qeyd edib ki, Vaqifi sələflərindən fərqləndirən əsas cəhətlərdən biri onun ilk dəfə olaraq Azərbaycan coğrafiyasını açıq və geniş şəkildə ədəbiyyatımıza gətirməsidir: "Vaqif öz şeirlərində ellər yaraşığı olan Azərbaycan gözəllərini tərənnüm edib. O, xalq danışıq dilini yüksək səviyyədə ədəbiyyata gətirib. Onun yaradıcılığı hər şeydən əvvəl, bir azərbaycançılıq hadisəsidir".

Akademik bildirib ki, SSRİ-nin məkrli şəkildə Qarabağda beynəlmiləlçilik hərəkatını, siyasətini həyata keçirdiyi bir zamanda Ümummilli lider Heydər Əliyevin Şuşada Vaqifə belə bir əzəmətli məqbərə ucaltması Qarabağa Azərbaycanın möhürünü vurması demək idi: "Prezident İlham Əliyevin rəhbərliyi ilə azad olunmuş Şuşada ilk olaraq Vaqifin məqbərəsinin yenidən bütün əzəməti ilə bərpa edilməsi böyük əhəmiyyətə malikdir. Yenidən təşkil olunan Vaqif Poeziya Günləri də Prezident İlham Əliyevin liderliyi ilə gündən-gündən inkişaf edən Azərbaycanın şeir, sənət dili ilə ifadə olunan böyük təntənəsidir".

*davamı səh. 2-də*

## Cahangir Cahangirov adına Xor Gürcüstanda festivalda qalib olub



Gürcü Folkloru və Klassik Musiqi İttifaqının təşkilatçılığı ilə 5-12 iyul tarixlərində Batumi şəhərində Klassik musiqi ifaçılarının VI beynəlxalq "Word Harmony" müsabiqə-festivalı keçirilib. Tədbirdə ölkəmiz də musiqi kollektivləri ilə təmsil olunub.

Beynəlxalq Muğam Mərkəzinin Cahangir Cahangirov adına Xoru müsabiqə-festivalda I yerə layiq görülüb və laureat diplomu ilə təltif edilib.

Xorun bədii rəhbəri Əməkdar müəllim Təranə Yusifova bildirib ki, festivalın açılış günü kollektiv dörd əsərlə çıxış edib. Azərbaycan xalq mahnılarından ibarət işləmələr, muğamın xarici ölkə bəstəkarlarının əsərləri ilə sintez şəklində təqdimatı böyük maraqla qarşılanıb.

Münsiflər heyəti xoru müsabiqə-festivalın qala-konsertinə də dəvət edib. Təmsilçilərimiz həmin gecədə "Turacı" xalq rəqsinə işləmə və "Qızım" xalq mahnısının muğamla sintezini ifa ediblər.

Qeyd edək ki, festivalın əsas məqsədi ölkələrin milli mədəniyyətlərinin təbliği, gənclərin dünyagörüşünün və intellektual səviyyələrinin inkişaf etdirilməsidir. Layihə yeni istedadların tanıdılmasına və gənclər arasında təcrübə mübadiləsinə də xidmət edir.

## Akademik Musiqili Teatrda "Palata"ya daxili baxış

Azərbaycan Dövlət Akademik Musiqili Teatrının səhnəsində mövsümün son premyerası – A.P.Çexovun "6 N-li palata" əsəri əsasında hazırlanan "Palata" (səhnələşdirən: Bəhram Osmanov) tamaşasına daxili baxış keçirilib.



Janr etibarilə tragikomik düşüncə sayılan səhnə əsərinin quruluşçu rejissoru Ər-Toğrul, rejissoru Zaur Əliyev, quruluşçu rəssamı Vüsal Rəhim, rejissor assistenti Sevinc Məmmədovadır.

Cəmiyyətin ictimai-fəlsəfi problemlərinin əks olunduğu səhnə əsərində hadisələr məhdud məkanda baş versə də, psixoloji təsir dairəsi hüdudsuzdur.

Bədii rəhbəri Əməkdar incəsənət xadimi Əliqismət Lalayev olan tamaşada obrazları Ər-Toğrul (Dilənçi), Zaur Əliyev (Yevgeni Xobotov), Nicat Əli (Xəstə), Türkel Tariqpeyma (Professor), Hüseyn Əlili (Andrey Yefimiç), Fərid Rzayev (Nikita), Cəbrayıl Cəbrayılov (Şizofren), xor artistləri Rəşad Rüstəmli və Orxan Mirzəyev canlandırırlar.

"Palata" tamaşaçılara gələn mövsümdə təqdim olunacaq.




## Milli mətbuatımız 149 yaşında...

İyulun 22-də Azərbaycan milli mətbuatının yaranmasının 149-cu ildönümü tamam olur. 1875-ci ilin həmin günü görkəmli maarifpərvər və mütəfəkkir Həsən bəy Zərdabinin redaktorluğu ilə ana dilimizdə ilk mətbu orqan – "Əkinçi" qəzeti nəşrə başlayıb. İki il fəaliyyət göstərən qəzetin cəmi 56 sayı işıq üzü görüb. Bu qısa ömründə qəzet mədəni-maarif tariximizdə, Azərbaycan xalqının milli oyanışı və özünüdərki yolunda tarixi səhifə açmağa nail olub. "Əkinçi"nin nəşrə başladığı 22 iyul tarixi təqvimimizə Milli Mətbuat Günü – media işçilərinin peşə bayramı kimi yazılıb.

"Əkinçi" qəzeti ilə başlanan bu yol sonrakı dövrlərdə vətənsevər ziyalılarımızın ərsəyə gətirdiyi digər mətbu nümunələrimiz tərəfindən davam etdirilib. XX əsrin əvvəllərində xalqımızın milli oyanışında, istiqlal arzularının gerçəkləşməsində mətbuatımız həmişə öndə olub. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra mətbuatımız yeni inkişaf mərhələsinə qədəm qoyub, müstəqil dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilib, istiqlal ideyalarının yayılmasında üzərinə düşən missiyanın öhdəsindən layiqincə gəlib.

Azərbaycan mətbuatı tarixinin sonrakı mərhələlərində, eləcə də sovet dövründə məlum ideoloji çərçivələrə rəğmən maarifçi düşüncənin genişlənməsinə, xalqımızın milli-mədəni inkişafına davamlı olaraq öz töhfələrini verib.

Mətbuatımızın müstəqillik dövrü fəaliyyəti xüsusilə zəngindir və ölkəmizin ictimai-siyasi, mədəni həyatında, milli həmrəyliyin möhkəmləndirilməsində, mənəvi dəyərlərin qorunması və təbliğində kütləvi informasiya vasitələri mühüm rol oynayıb.

Azərbaycan mediası özünün ən çətin sınaqlarından birini, sözsüz ki, 2020-ci ilin 44 günlük Vətən müharibəsində verdi. Azərbaycanın haqlı mübarizəsinin yüksək peşəkarlıqla ölkə və beynəlxalq ictimaiyyətə çatdırılmasında bütün imkanları ilə səfərbər oldu. Mediamız şanlı Zəfərimizin salnaməsini yaratmaqla yanaşı, bu gün azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda dövlətimiz tərəfindən həyata keçirilən böyük miqyaslı quruculuq işlərini də tarixin yaddaşına köçürür, həm də Böyük Qayıdışın salnaməsi yazılır. İllər, qərinələr keçəcək, yeni nəsillər tariximizin bu şan və şərəf mərhələsi haqqında arxiv materialına çevrilən qəzetləri səhifələyərək məlumat alacaqlar.

Milli Mətbuat Günü münasibətilə ölkəmizin bütün media nümayəndələrini təbrik edir, cansağlığı və yaradıcılıq uğurları arzulayırıq.

## "Batika kəlağayının varisidir..."

Rəssam Tatyana Ağababayeva: "Bədii-toxuculuq üzrə təhsil alırdım. Biz burada qobelendən əlavə bütün texnikaları öyrənirdik. Mənim diplom işim qobelen olub. Yəni birbaşa batikaya gəlməmişəm. İlk batika əsərimi ali təhsilimi bitirəndən bir neçə il sonra yaratmışam. "Şam işığında qadın" adlı həmin əsərimi Latviyada təşkil edilən qrup sərgisində nümayiş etdirmişəm".

*səh. 5*

Poeziya bayramında "Füzuli hücrələri"



*səh. 2*



Milli Dram Teatrında "İblis və..."

*səh. 3*



Astarada sərgi-plener

*səh. 4*

# Oksfordda işgüzar görüşlər

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin dəvəti ilə "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısında iştirak etmək üçün iyulun 18-də İngiltərəyə işgüzar səfərə gedib.

Zirvə toplantısı Oksford şəhərində keçirilib. Dövlətimizin başçısı toplantı çərçivəsində bir sıra işgüzar görüşlər keçirib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Oksfordda, qarşı tərəfin müraciətinə əsasən Lüksemburq Böyük Hersoqluğunun Baş naziri Lyuk Friden ilə görüşüb.




Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələr müzakirə olunub.

Lyuk Friden Azərbaycan və region haqqında daha çox məlumatın əldə edilməsinin vacibliyini vurğulayıb, Lüksemburqun regional siyasətinin balanslı xarakter daşıdığını diqqətə çatdırıb.

İlham Əliyev regional proseslər barədə məlumat verərək bölgəyə münasibətdə balanslı siyasətin və bütün tərəflərin mövqeyinə hörmətlə yanaşılmasının önəmini qeyd edib.

Görüşdə ikitərəfli münasibətlərə toxunularaq, qarşılıqlı hörmət və etimad əsasında əlaqələrimizin inkişaf etdirilməsi üçün perspektivlərin olduğu vurğulanıb.

Azərbaycan ilə Lüksemburq arasında yüksək texnologiyalar, səhiyyə, investisiyalar, nəqliyyat daşımaları və digər sahələrdə əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycanın COP29-a ev sahibliyi etməsinin əhəmiyyəti vurğulanıb. Lüksemburqun hökumət başçısı bu tədbirdə iştirak etmək niyyətində olduğunu deyib.

***

Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısı çərçivəsində İsveçrə Konfederasiyasının Prezidenti Viola Amher ilə söhbət edib.

Azərbaycanla İsveçrə arasında ikitərəfli münasibətlər və regional sülh gündəliyinin inkişaf etdirilməsi, ölkəmizin ev sahibliyi edəcəyi



COP29 ilə bağlı fikir mübadiləsi aparılıb. İsveçrə şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa-quruculuq işlərinə töhfəsi müzakirə olunub.

***

Prezident İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə söhbəti zamanı ölkələrimiz arasında əməkdaşlıqla bağlı fikir mübadiləsi olub. Macarıstanın Baş nazirinin Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşündə (6 iyul) iştirak etmək üçün Şuşaya səfəri və bu çərçivədə keçirilən görüşlər məmnunluqla xatırlanıb.

***

Azərbaycan Prezidenti Oksfordda Litva Prezidenti Gitanas Nauseda, Finlandiya Prezidenti Aleksandr Stubb, Çex Respublikasının Baş naziri Petr Fiala, Almaniya Kansleri Olaf Şolts ilə də görüşüb.

# Şuşada söz-sənət büsatı – Vaqif Poeziya Günləri

## Qarabağda suverenliyimizin tam bərpasından sonra bu büsatın dəyəri daha dərindir




*əvvəli səh. 1-də*

Xalq yazıçısı Elmira Axundova Ulu öndər Heydər Əliyevin Azərbaycan dilinə, ədəbiyyatına sonsuz sevgisindən, qayğısından danışıb. Bildirib ki, hələ sovet dövrünün ən çətin vaxtlarında Heydər Əliyev milli düşüncənin, azərbaycançılıq ideyasının yaşamasına, inkişafına təkan verib. Bu düşüncəni yaşadan, gələcək nəsillərə çatdıran əsərlərə Dövlət mükafatının verilməsinə nail olub.

Milli Məclisin VI çağırış deputatı Fazil Mustafa söyləyib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük təşkilatçılıq qabiliyyəti, Azərbaycan Ordusunun misilsiz rəşadəti ilə işğal altındakı bütün torpaqlarımız azad olundu. Bu gün Şuşa Azərbaycanın simvoluna çevrilən bir məkan olaraq yenidən öz görkəminə, əzəmətinə qaytarılır.

Xalq şairi Sabir Rüstəmxanlı, Azərbaycan Mətbuat Şurasının sədri, AYB-nin sədr müavini Rəşad Məcid, AYB-nin katibi Səlim Babullaoğlu və birliyin Qazax bölməsinin sədri Barat Vüsal Şuşanın füsunkarlığı, qeyri-adi təbiəti, bənzərsizliyi, beynəlxalq tədbirlərin ünvanına çevrilməsindən danışıb, şeirlər söyləyiblər.





Bədii hissədə Əməkdar artistlər Azad Şükürov və Nazir Rüstəmovun ifasında Məhəmməd Füzuli və Molla Pənah Vaqifin yaradıcılıq nümunələri əsasında poetik duet təqdim edilib.

Əməkdar artist Nigar Şabanova, solistlər Abgül Mirzəliyev, İlkin Dövlətov və Leyla Rəhimlinin ifasında "Qarabağ" kompozisiyası, "Şuşanın dağları" və "Bura vətəndir" musiqi nömrələri səsləndirilib. Konsert proqramı alqışlarla qarşılanıb.

Sonda xatirə şəkilləri çəkdirilib.

**Nurəddin Məmmədli**
**Şuşa**
**Fotolar: Həbib Hüseynov**

# Poeziya bayramında "Füzuli hücrələri"



Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Şuşada keçirilən Vaqif Poeziya Günləri açılış mərasimindən sonra rəngarəng tədbirlərlə davam edib.

İyulun 18-də Xurşidbanu Natəvanın evinin qarşısında dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin (1494–1556) 530 illiyinə həsr olunan "Füzuli hücrələri" adlı teatral kompozisiya təqdim edilib.

Füzulinin əsərləri əsasında hazırlanan kompozisiyadan əvvəl



çıxış edən Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi Məhəmməd Füzulinin yaradıcılığı haqqında söz açıb. Mütəfəkkir şairin anadilli poeziyanın inkişafına verdiyi mühüm töhfələrdən bəhs edib.

Kompozisiya barədə danışan İlqar Fəhmi söyləyib ki, bədii-musiqili nümunədə Məhəmməd Füzulinin "Bəngü-badə", "Leyli və Məcnun", "Səhhət və Mərəz", "Rindü Zahid" və s. əsərlərindən istifadə olunub.

Tamaşaçıların böyük marağına səbəb olan kompozisiyanın ssenari müəllifi İlqar Fəhmi, quruluşçu rejissoru Əməkdar artist Loğman Kərimovdur.

Kompozisiyada Şuşa Dövlət Musiqili Dram, Dövlət Pantomima, Dövlət Yuğ teatrlarından Əməkdar artistlər Nazir Rüstəmov, Azad Şükürov, Bəhruz Vaqifoğlu, Teymur Məmmədov, Qasım Nağı, həmçinin Orxan Abışov, Püstəxanım Zeynalova, Jalə Novruz, Zəhra Salayeva, Sürahi Əliməmmədova, Nurlan Rüstəmov, Cavad Nuriyev, Elnur İsmayılov, Nihat Heybətovla yanaşı, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı və Bakı Xoreoqrafiya Akademiyasının tələbələri də iştirak ediblər.

# "Sözün Vətəni – Qarabağ": şeir saatı





Vaqif Poeziya Günləri çərçivəsində iyulun 18-də Xurşidbanu Natəvanın evinin qarşısında "Sözün Vətəni – Qarabağ" adlı müasir poeziya saatı təşkil olunub.

Əvvəlcə tədbirin aparıcısı, Azərbaycan Yazıçılar Birliyi (AYB) Poeziya sektorunun rəhbəri İbrahim İlyaslı Vaqif Poeziya Günləri haqqında təəssüratlarını bölüşüb. O, poeziya günlərini söz, sənət və mənəviyyat bayramı adlandırıb. Qeyd olunub ki, bu dəfə də poeziya günləri yüksək səviyyədə təşkil edilib.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru Əməkdar artist, bədii qiraət ustası Ağalar Bayramov vətənpərvərlik ruhlu şeirlər söyləyib.

Daha sonra söz şairlərə verilib. AYB-nin Quba bölməsinin sədri Ramiz Qusarçaylı, yazıçı-dramaturq, şair, tərcüməçi Seyran Səxavət, AYB-nin Qarabağ bölməsinin sədri Elçin İsgəndərzadə, şairlər Əməkdar mədəniyyət işçiləri Qəşəm Nəcəfzadə, Rafiq Yusifoğlu, AYB-nin mətbuat xidmətinin rəhbəri Xəyal Rza, Fərid Hüseyn, İntiqam Yaşar və başqaları müxtəlif mövzulu şeirlər səsləndiriblər. Bir sıra müəlliflərin Şuşaya həsr olunan şeirləri xüsusi maraqla qarşılanıb.

***

İyulun 18-də axşam Vaqif Poeziya Günləri çərçivəsində Xurşidbanu Natəvanın evinin önündəki meydanda etnocaz konserti təşkil olunub. Konsertdə cazmen, pianoçu, Əməkdar artist Emil Əfrasiyabın təqdim etdiyi musiqi nömrələri alqışlarla qarşılanıb.

Şuşada Vaqif Poeziya Günləri iyulun 19-da başa çatacaq.

# Dövlət Tərcümə Mərkəzinin nəşrləri Bosniya və Herseqovinada maraqla qarşılanıb

Ölkəmizin Bosniya və Herseqovinadakı səfirliyinin təşəbbüsü ilə Azərbaycan Dövlət Tərcümə Mərkəzində hazırlanaraq boşnak dilində nəşr edilmiş "Qarabağın incisi – Şuşa" kitab-albomu, habelə Xalq yazıçısı Afaq Məsudun ingilis dilinə tərcümə olunmuş "Azadlıq" romanı Bosniya və Herseqovinada geniş auditoriyanın diqqətinə təqdim edilib.

Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunmasına həsr edilən kitab-albom və Afaq Məsudun 1990-cı illərin əvvəllərində Azərbaycan xalqının azadlıq və müstəqillik uğrunda mübarizəsindən bəhs edən romanı səfirlik tərəfindən Bosniya və Herseqovinanın rəsmilərinə, ədəbiyyat və mədəniyyət xadimlərinə, universitet professorlarına, media rəhbərlərinə, Sarayevo şəhərində yerləşən diplomatik missiyalara göndərilib.

Bosniya və Herseqovina Parlamentinin Nümayəndələr Palatasının üzvü Nihad Ömeroviçin göndərdiyi təşəkkür məktubunda isə bu kitabların nəşrində səfirliyin göstərdiyi səylər yüksək qiymətləndirilib, onların Azərbaycanın zəngin tarixi və mədəniyyəti, xalqımızın azadlıq və istiqlal mübarizəsi haqqında dəyərli məlumatlar əldə edilməsinə töhfə verəcəyi qeyd olunub.

# Bakıda Beynəlxalq Azadlıq Cəbhəsi təsis edilib

## Fransa kolonializmindən əziyyət çəkənlər üçün yeni səhifə açılır

Məlumat verildiyi kimi, Qvadelupanın Azadlığı naminə Xalq Birliyinin Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan 20-yə yaxın siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə iyulun 17-18-də Bakıda qurultay keçirilib.

Qapalı müzakirələrin yekunu olaraq Fransa koloniyalarında müstəqillik uğrunda mübarizə aparan siyasi partiya və hərəkatların rəhbər şəxsləri vahid cəbhənin – Fransa Koloniyalarının Beynəlxalq Azadlıq Cəbhəsinin yaradılmasına dair razılığa gəliblər.

Beynəlxalq Azadlıq Cəbhəsinin yaradılması haqqında bəyannamə imzalanıb, həmçinin Cəbhənin nizamnaməsi təsdiqlənib.

Bəyannamədə Azərbaycanın dekolonizasiya prosesindəki vacib rolu, habelə Bakı Təşəbbüs Qrupunun müstəmləkə ərazilərinin azadlığı uğrunda apardığı mübarizəyə verdiyi dəstək və sadiqlik xüsusi vurğulanıb, ölkəmizə minnətdarlıq ifadə olunub.




Sənəddə Fransa kolonializminin irqçi və repressiv siyasəti pislənilib, bu xüsusda Yeni Kaledoniya və digər müstəmləkə ərazilərində Fransa hökuməti tərəfindən həyata keçirilən cinayətlər kəskin qınanılıb.

Beynəlxalq Azadlıq Cəbhəsinin təsis olunması Fransa müstəmləkəçiliyinə qarşı mərkəzləşdirilmiş platformanın, vahid çətirin yaradılması deməkdir. Qurultay iştirakçıları müstəqillik uğrunda mübarizədə daha sıx təşkilatlanma, habelə Fransa kolonializminə qalib gələrək müstəqillik əldə etmək yolunda fəaliyyətlərinin əlaqələndirilməsinə qərar veriblər.

Cəbhənin gələcək fəaliyyətinə müstəmləkəçiliyin aradan qaldırılmasına dair strategiyanın, o cümlədən Fəaliyyət Planının və gündəliyinin hazırlanması, beynəlxalq təşkilatlara təqdim edilməsi kimi məsələlər daxildir.

Bakıda yaradılan yeni Beynəlxalq Azadlıq Cəbhəsinin saytı da istifadəyə verilib: https://fildecof.org/

***

Bu gün Fransa kolonializmindən əziyyət çəkənlər üçün vacib gündür. Artıq bizim üçün yeni səhifə açılır.

Bu sözləri Yeni Kaledoniyanın xarici işlər naziri Mikael Forrest Qvadelupanın Azadlığı naminə Xalq Birliyinin təşkilatçılığı və Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan şəxslərin iştirakı ilə keçirilən mətbuat konfransı zamanı söyləyib.

"Biz bir çox istiqamətdə fəaliyyət göstərəcəyik, həmçinin konfranslar təşkil edəcəyik. Bununla da biz özümüzdən, problemlərimizdən danışacağıq və səsimizi dünyaya çatdıracağıq. Bu gün burada sizin qarşınızda olan xalqların nümayəndələri bunları edəcəklər", – deyə o diqqətə çatdırıb.

Qeyd edək ki, Fransa Koloniyalarının Qurultayının keçirilməsi məhz Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə lokomotiv rolunu üzərinə götürərək dekolonizasiya prosesinə verdiyi töhfələrin nəticəsidir. Bakı Təşəbbüs Qrupu Fransa müstəmləkələrinin azadlıq uğrunda ədalətli mübarizəsinə dəstəyini davam etdirir.

# Mədəniyyət paytaxtımız daha bir beynəlxalq konfransa ev sahibliyi edib

Xəbər verdiyimiz kimi, iyulun 18-də Şuşada ənənəvi Vaqif Poeziya Günləri başlayıb. Söz-sənət bayramına dost ölkələrdən də qonaqlar qatılıb.



Eyni gündə mədəniyyət paytaxtımız daha bir beynəlxalq konfransa ev sahibliyi edib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Şuşa şəhərində "İslam dünyasında qadınlar: ənənələr və çağırışlar" mövzusunda konfrans keçirilib. Tədbir Nazirlər Kabinetinin sərəncamı ilə təsdiqlənən Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı Tədbirlər planı çərçivəsində təşkil olunub.

Konfransda Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov, VI çağırış Milli Məclisin deputatı, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Mərakeş Krallığının həmrəylik, sosial inteqrasiya və ailə naziri xanım Aavatif Hayar, Azərbaycan mədəniyyət nazirinin müavini Səadət Yusifova, digər rəsmilər, müxtəlif dövlət qurumlarının əməkdaşları iştirak ediblər.

Bahar Muradova giriş nitqində qeyd edib ki, konfransın məqsədlərindən biri İslam mədəniyyətinin təbliğində qadınların rolunun gücləndirilməsinin vacibliyini bir daha vurğulamaqdır.

Ramin Məmmədov Şərqdə ilk qadın opera bəstəkarının, ilk təyyarəçi xanımın, ilk qadın kinorejissorun azərbaycanlı olduğunu xatırladaraq bunun İslam dünyasında mütərəqqi ənənələrin inkişafına önəmli töhfələr olduğunu bildirib.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova qadınların əzəldən bəri dialoq tərəfdarı olduqlarını deyib. O, Azərbaycan qadınının həm ailədəki, həm də cəmiyyətdəki sarsılmaz mövqeyinin dövlətimizin uğurlu sosial siyasətinin nəticəsi olduğunu vurğulayıb.

Konfrans çərçivəsində keçirilən "İslam dünyasında qadın: ənənələr və çağırışlar" mövzusunda panel iclasda Qarabağın bərpasında və dayanıqlı inkişafında qadınların rolu, qloballaşan dünyada ümumislam kontekstində qadın hüquqlarının müdafiəsi, insan və ətraf mühit münasibətlərinə islami baxış və digər istiqamətlərdə müzakirələr aparılıb.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova Şuşanın tanınmış qadın şəxsiyyətlərinin şəhərin tarixində rolundan bəhs edib. Rektor Xurşidbanu Natəvan, Ağabəyim ağa, Fatma xanım Kəminə kimi ədiblərin Azərbaycanın mədəniyyətinə böyük töhfələr verdiklərini bildirib.

VI çağırış Milli Məclisin deputatı Ceyhun Məmmədov Azərbaycan cəmiyyətinin ən vacib yanaşmalarından biri olan qızların mütləq şəkildə təhsil almalarının önəmini qeyd edib.

***

"İslam dünyasında qadınlar: ənənələr və çağırışlar" konfransının iştirakçıları Şuşa şəhərinin tarixi məkanları və əsrarəngiz təbiəti ilə də tanış olublar.

Qonaqlar "İsa bulağı" istirahət kompleksində bərpa işləri ilə tanış olublar. Məlumat verilib ki, Vətən müharibəsindən sonra ərazi Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi tərəfindən bərpa edilib. İsa bulağının ətrafındakı istirahət mərkəzi və restoran milli üslubda təmir edilib, abadlıq işləri aparılıb.

Qonaqlar həmçinin Molla Pənah Vaqifin muzey-məqbərə kompleksini ziyarət edib, Şuşa qalasının divarları önündə, Cıdır düzündə xatirə şəkilləri çəkdiriblər. Konfrans iştirakçıları üçün konsert proqramı təqdim olunub.

## Şuşada Qarabağ milli geyimlərinin sərgisi

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin təşkilatçılığı ilə Qarabağ milli geyimlərinin sərgisi açılıb. Sərgidə XVIII–XIX əsrlərdə Qarabağ bəyləri və xanımlarına məxsus geyimlərin eskizləri əsasında hazırlanmış geyimlər nümayiş olunur.

Xanlıq Muxtar karvansarasında ("Güllü bağça" ilə üzbəüz) təşkil olunan sərgi iyulun 16-dan etibarən hər gün ziyarət üçün açıqdır.

Qeyd edək ki, eyni məkanda "Qarabağ tarixi fotolarda" adlı sərgi də təşkil edilib. Sərgidə 1880–1970-ci illərdə Qarabağda azərbaycanlı fotoqraflarla yanaşı, ölkəmizdə yaşamış rus, yəhudi əsilli fotoqraflar tərəfindən çəkilmiş nadir şəkillər yer alır. Fotolar "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Muzey Mərkəzinin fonduna məxsusdur.



Xanlıq Muxtar karvansarasındakı bu sərgi avqustun 12-dək davam edəcək.

## "ANAMA" filminin təqdimatı keçirilib

əvvəli səh. 1-də

Mədəniyyət Nazirliyi və ANAMA-nın birgə təşkilatçılığı ilə keçirilən təqdimatda rəsmilər, ictimai-siyasi xadimlər, ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun nümayəndələri iştirak ediblər.




Mədəniyyət nazirinin müavini Murad Hüseynov çıxış edərək filmin əhəmiyyətindən söz açıb. Bildirib ki, film 2023-cü ildə Mədəniyyət Nazirliyinin sifarişi ilə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında istehsal olunub. Filmin rejissoru və ssenari müəllifi Murad İbrahimbəyov, təsvir rejissoru Nadir Mehdiyevdir.

ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov bildirib ki, qurumun əməkdaşları işğaldan azad olunmuş ərazilərin minalardan daha tez təmizlənməsi üçün əllərindən gələni əsirgəmirlər.

Qeyd edək ki, ANAMA-nın "Böyük Qayıdış" yolunda fəaliyyəti qurumun hər həftə və hər ay yayımladığı statistikada da öz əksini tapır. Təkcə bu ilin iyun ayı ərzində ümumilikdə 5675,5 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib, piyada əleyhinə 278, tank əleyhinə 271 mina və 1695 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

İşğaldan azad edilmiş ərazilərdə ANAMA tərəfindən həyata keçirilən minatəmizləmə əməliyyatları, cəsur minaaxtaranların peşəkar və məsuliyyətli fəaliyyəti və həyatı filmin əsas süjet xəttini təşkil edir.

**Lalə**

## Milli Dram Teatrında "İblis və..."

### Yeni tamaşaya daxili baxış

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında "İblis və..." tamaşasına daxili baxış keçirilib.



Yeni səhnə əsərinin quruluşçu rejissoru Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı Mehriban Ələkbərzadə, quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Əsgərovdur.

Görkəmli dramaturq Hüseyn Cavidin "İblis" faciəsinin motivləri əsasında hazırlanan tamaşanın janrı fəlsəfi dekonstruktiv-metadram kimi müəyyən olunub.

Teatrdan bildirilib ki, səhnə əsəri bədii şuranın müzakirəsindən sonra qəbul olunub.

Tamaşanın premyerasının sentyabrda Aleksandrinski Teatrında (Sankt-Peterburq) reallaşması nəzərdə tutulub. Səhnə əsəri Akademik Milli Dram Teatrının səhnəsində isə 4-6 oktyabrda tamaşaçıların ixtiyarına veriləcək.

## Malayziyada Azərbaycanın multikultural təcrübəsindən danışılıb

İyulun 17-18-də Malayziyanın Kuala-Lumpur şəhərindəki Beynəlxalq İslam Düşüncəsi və Sivilizasiyası İnstitutunda (ISTAC-IIUM) "İslamofobiya və təhsil" mövzusunda beynəlxalq dəyirmi masa keçirilib.

Bildirilib ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov beynəlxalq dəyirmi masada məruzə ilə çıxış edib. O, tədbirin ikinci günündə "Birgə tərəfdaşlıqların araşdırılması" mövzusunda bölmə iclasının moderatoru olub.

R.Həsənov səfər çərçivəsində Malayziyanın Baş naziri Ənvər İbrahimlə görüşdə də iştirak edib. Görüşə dəyirmi masanın Azərbaycan, Malayziya, Pakistan, Türkiyə, Böyük Britaniya, ABŞ və İndoneziyadan olan iştirakçıları qatılıblar. Söhbət zamanı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyət təcrübəsinə diqqət yetirilib.

Qeyd edilib ki, beynəlxalq dəyirmi masanın məqsədi islamofobiya və təhsillə bağlı işçi qrupunun yaradılmasıdır. Qrup islamofobiyanın universitet nizamına uyğun olaraq təhsil sahəsinə çevrilə biləcəyini araşdıracaq.

## "Qonağımız var"da bu dəfə kim var?

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə həyata keçirilən "Qonağımız var" layihəsi davam edir. Layihənin məqsədi əhalinin asudə vaxtının səmərəli təşkil olunması, ədəbiyyat və incəsənət xadimləri ilə görüşlərlə insanların bədii-estetik zövqünün formalaşmasına şərait yaratmaqdır.

Layihə çərçivəsində Xətai rayon Heydər Əliyev parkında tanınmış aktrisa, aparıcı, Əməkdar artist Dilarə Əliyeva ilə görüş olub.

Dilarə Əliyevanın həyat və fəaliyyəti haqqında məlumat verilib. Aktrisanın tamaşa və filmlərdə canlandırdığı obrazlardan, habelə televiziya layihələrindən və uğurlarından danışılıb.

Görüş zamanı aktrisanın rol aldığı tamaşalardan fraqmentlər nümayiş olunub.

## Süni intellekt və rəqəmsal inkişaf

### Alimlərimiz nə düşünürlər?

İyulun 17-də AMEA Rəyasət Heyətində "Süni intellekt və rəqəmsal inkişaf: mövcud reallıqlar və gələcəyə baxış" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli bildirib ki, konfransın məqsədi qloballaşan dünyanın çağırışlarından olan rəqəmsal transformasiyanın trendlərini təhlil edərək ölkəmizdə süni intellekt texnologiyaları ilə əlaqədar aparılan tədqiqatları, nailiyyətlərin öyrənilməsini, mümkün tətbiqləri sahəsində mövcud vəziyyəti müzakirə etmək və əldə olunmuş nəticələri tanıtmaqdır.

AMEA Rəyasət Heyəti aparatının Elektron akademiya şöbəsinin müdiri Fariz İmranov məruzəsində akademiya əməkdaşlarının "Vikipediya" virtual ensiklopediyasında fəaliyyəti, AMEA-nın elmi jurnallarına DOI rəqəmsal identifikatorunun təmin edilməsi (ANAS DOI), sənəd mübadiləsinin elektronlaşdırılması və digər məsələlər barədə məlumat verib.

Tədbirdə həmçinin TÜBİTAK-ın BİLGEM Süni İntellekt İnstitutunun direktoru professor Mehmet Haklıdırın "Yaradıcı süni intellektin gələcəyi: təhdidlər və imkanlar", Rusiya Federal Elmi Aqromühəndislik Mərkəzinin nümayəndəsi, Rusiya EA-nın müxbir üzvü Zahid Qocayevin "Süni intellekt Rusiyanın aqrosənaye kompleksində", Yaponiyanın Tohoku Universitetinin professoru Xəlil Kələntərin "İnsanabənzər robotlar: imkanlar və tətbiqlər" və İstanbul Texniki Universitetinin professoru Murat Sarının "Süni intellektlə real davranışın aşkarlanması" mövzusunda məruzələri dinlənilib.

Daha sonra "Süni intellekt və rəqəmsal transformasiya: trendlər və gələcəyə baxış; rəqəmsal transformasiyada çətinliklər; robototexnika" və "Obrazların tanınması, maşın öyrənməsi, təbii dilin işlənməsi" mövzularında bölmə iclasları keçirilib.

# Vətən müharibəsi şəhidlərinin ailə üzvləri Şimali Kiprdə

Qardaş Azərbaycanın qəlbimizdə həmişə xüsusi yeri olacaq. Azərbaycanın qəhrəmanlarının doğmaları ilə görüş bizim üçün çox xoşdur.



Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Prezidenti Ersin Tatar bu sözləri iyulun 17-də Lefkoşada İkinci Qarabağ müharibəsi şəhidlərinin ailə üzvlərindən ibarət qrupla görüşü zamanı deyib.

Ersin Tatarın sözlərinə görə, ŞKTC ilə Azərbaycan arasında münasibətlər mühüm səviyyəyə çatıb. Bu nailiyyətlər Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəstəyi sayəsində əldə olunub".

Şimali Kipr rəhbəri türk dövlətlərinin gəncləri arasında əlaqələrin əhəmiyyətini xüsusi qeyd edib: "Ölkələrimizin gənc nəsli bir-birini daha yaxşı tanımalıdır".

Azərbaycandan gələn qonaqlara müraciət edən Ersin Tatar deyib: "Qarabağ müharibəsindəki Qələbə tarixin parlaq səhifəsi oldu. Vətən uğrunda canından keçən şəhidlər ölmür. Biz unutmayacağıq və şəhidlərin unudulmasına imkan verməyəcəyik. Onlar doğma torpaqlarını geri qaytarmaq üçün canlarını fəda etdilər. Bu Zəfər Azərbaycanı daha da gücləndirib".

"Zəfər" Azərbaycan Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin rəhbəri Sevinc Orucova Azərbaycan və ŞKTC-nin ictimai strukturları arasında əlaqələrin inkişafının vacibliyini qeyd edib.

Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin Şimali Kiprə səfəri iyulun 28-dək davam edəcək.

# Vətən itkin-şəhidlərini yenidən tanıyır

Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının aidiyyəti qurumların mütəxəssisləri ilə birgə Birinci Qarabağ müharibəsində itkin düşmüş sayılan və naməlum şəhid kimi dəfn olunduğu müəyyən edilən şəxslərlə bağlı araşdırmaları davam etdirir.

Dövlət Komissiyasından bildiriblər ki, daha səkkiz itkin-şəhidin kimliyi müəyyən edilib. İyulun 18-də onlardan dördünün cəsədinin qalıqları yaxınlarının, ailə üzvlərinin iştirakı ilə yenidən, öz adları ilə torpağa tapşırılıb.

Birinci Qarabağ müharibəsində itkin düşdüyü ehtimal edilən Abbasov Akif İlyas oğlunun kimliyi 31 ildən sonra müəyyənləşdirilib.





Akif Abbasov 1 iyul 1970-ci ildə Daşkəsən rayonunun Əhmədli kəndində anadan olub. 28 dekabr 1993-cü ildə Ağdərə rayonunun Salahlı kəndi ərazisində erməni silahlı dəstələri ilə döyüşdə şəhid olub. O, Bərdə Şəhidlər xiyabanında naməlum şəhid kimi dəfn edilmişdi.

Şəhidin cəsədinin qalıqları ailəsinə təhvil verilib. Doğma kəndində vida mərasimi keçirilib. Dəfn mərasimi Gəncə Şəhidlər xiyabanında olub.

Mərasimdə Daşkəsən rayonunun və Gəncə şəhərinin icra başçıları Orxan Abbasov, Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Rəcəb Öztop, ictimaiyyət nümayəndələri iştirak ediblər.

***

Birinci Qarabağ müharibəsində itkin düşmüş sayılan və şəxsiyyəti müəyyənləşdirilən şəhidlərdən biri də Qurbanov Aydın Əsədulla oğludur.

Onun cəsədinin qalıqları iyulun 18-də paytaxtın Sabunçu rayonunun Maştağa qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Mərasimdə şəhidin ailə üzvləri, yaxınları, Müdafiə Nazirliyinin əməkdaşları, rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri iştirak edib.

Dəfn mərasimində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, yaylım atəşi açılıb.

***

Bundan əlavə, kimliyi müəyyən edilən itkin-şəhidlər Yaşar Ələkbər oğlu Kərimov Neftçala rayonunun Qaramanlı kəndində, Zahid Baxış oğlu Nağıyev Ağdam rayonunun Evoğlu kəndində dəfn edilib.

İyulun 19-da isə Rəhim Əlyar oğlu Rəsulov Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında, İbrahim Ələşrəf oğlu Vəliyev İmişli rayonundakı Şəhidlər xiyabanında, Bəxtiyar Əliş oğlu Hümbətov Yevlax şəhərindəki Şəhidlər xiyabanında dəfn olunacaq.

# Qazaxıstandan gələn diaspor nümayəndələrimiz Füzuli və Şuşaya səfər ediblər

Qazaxıstanda fəaliyyət göstərən azərbaycanlı diasporunun fəallarından, eləcə də qardaş qazax xalqının təmsilçilərindən ibarət heyət ölkəmizə səfər çərçivəsində Füzuli və Şuşada olub.



Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, Füzuli rayonu ərazisində qonaqlar yolboyu erməni barbarlığının sübutu olan dağıdılmış, viran qoyulmuş kəndləri görüblər. Qonaqlara Füzuli şəhərində, eləcə də rayonun işğaldan azad edilmiş kəndlərində aparılan bərpa, yenidənqurma işləri haqqında məlumat verilib.

Nümayəndə heyəti bir neçə ay öncə Füzuli rayonunda Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin birlikdə açılışını etdikləri Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinə gəliblər. Mərkəzin 3D modelləşdirmə, səsyazma studiyası, kompüter, musiqi, xalçaçılıq və digər yaradıcılıq otaqları ilə tanış olan nümayəndə heyəti uşaqlar üçün yaradılmış imkanları yüksək qiymətləndirib.

Sonra qonaqlar Şuşaya yola düşüblər. Burada da erməni qəsbkarlarının otuzillik işğal dövründə törətdikləri vəhşiliklərdən sonra aparılan bərpa və yenidənqurma işləri ilə tanış olublar. “Güllələnmiş heykəllər” (Xurşidbanu Natəvan, Üzeyir Hacıbəyli və Bülbülün erməni vandalizminə məruz qalmış büstləri), Yuxarı Gövhər ağa məscidi, İsa bulağı, Vaqifin məqbərəsi, Cıdır düzü və digər görməli yerləri ziyarət ediblər.

Diaspor nümayəndələri və qazax xalqının təmsilçiləri Cıdır düzündə ölkələrimizin bayraqlarını qürurla dalğalandırıb, xatirə şəkilləri çəkdiriblər.

# Ağdam teatrı mövsümə yekun vurub

Ağdam Dövlət Dram Teatrı 101-ci mövsümə Şahnaz Şahinin “Mübariz” əsəri əsasında hazırlanmış eyniadlı tamaşa ilə yekun vurub.



Milli Qəhrəman Mübariz İbrahimovun (1988–2010) şücaətindən bəhs edən tamaşanın quruluşçu rejissoru Kərim Həsənov, quruluşçu rəssamı Müşfiq Qarayev, musiqi tərtibatçısı Azər Şükürov, rejissor assistenti isə Ceyhun Yusifovdur.

Rolları teatrın aktyorları Fərhad Fərhadzadə, Elmir Hümbətov, Nuranə Əliyeva, Qalib Abdullazadə, Teymur Kərimov və Vüqar Mərdanov ifa ediblər.

# Sumqayıtda mövsüm “Ocaq”la bitdi

İyulun 16-da Sumqayıt Dövlət Dram Teatrında 56-cı mövsümün sonuncu tamaşası oynanıldı.



Nümayişdən öncə teatrın baş rejissoru Xalq artisti Firudin Məhərrəmov tamaşaçıları salamlayaraq, səhnəyə çıxan teatrın yaradıcı heyətini təqdim etdi. Bildirdi ki, teatr mövsümünün açılışı kimi bağlanışı da əlamətdar mərasimdir, üstəlik, bu həm də bir növ kollektivin hesabatıdır. Bu mövsüm yaradıcılıq baxımından çox uğurlu olub, kollektiv bir çox festival və teatr bayramında iştirak etdi.

Firudin Məhərrəmov mövsümün uğurları arasında gənc rejissorlar Ümid Abbasın və Fuad Cavadzadənin uğurlu yozumlarını da vurğuladı.

Sumqayıt teatrının veteranı, Xalq artisti Məzahir Süleymanov doğma teatrın nailiyyətlərini bu gün də qürurla alqışladığını bildirdi və 56-cı mövsümün uğurlarla yadda qaldığını söylədi.

Çıxışlardan sonra Turqud Özakmanın pyesi əsasında hazırlanmış “Ocaq” tamaşası nümayiş etdirildi.

**Gülcahan**

# “Biz gedərik... əsər qalar yadigar” – maarifləndirici tədbir

İyulun 17-də Masallı Tarix-Diyarşünaslıq Muzeyində “Biz gedərik, ancaq qalar ruzigar, Biz ölərik, əsər qalar yadigar” adlı maarifləndirici tədbir keçirilib.



Maddi mədəni irsin qorunması və təbliği məqsədilə təşkil olunan tədbirdə Masallı Tibb Məktəbinin müəllim və tələbələri iştirak ediblər.

Muzeyin kiçik elmi işçisi Dilgüşə Məmmədova bildirib ki, əsrlər boyu dünyada yaşayan xalqların maddi mədəni irsi üçün ən böyük təhlükələr dağıdıcı müharibələr, insan iradəsindən kənar təbii fəlakətlər idisə, bu gün qloballaşma prosesləri də maddi-mənəvi irs üçün ciddi təhdidlərə çevrilib. Ona görə də milli-mənəvi dəyərlərin, tarixi-mədəni irsin qorunması və təbliği, eləcə də beynəlxalq səviyyədə mədəni irsin müdafiəsi və mühafizəsinə dəstək hazırda bütün ölkələrin yerinə yetirməli olduğu işdir. Ölkəmizdə tarixi, dini, memarlıq abidələrinin qorunması, bərpası və təbliği diqqətdə saxlanılır.

İştirakçılar muzeyə ekskursiya edərək bölgənin maddi mədəni irs nümunələri ilə yaxından tanış olublar.

# Vətənin qəhrəmanları unudulmur

Lənkəran şəhər Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə “Tariximiz qürurumuzdur” layihəsi çərçivəsində şəhər Mədəniyyət Mərkəzində Vətən müharibəsi şəhidi Afərin Qulamzadənin doğum günü münasibətilə xatirə tədbiri keçirilib.

Əvvəlcə tədbir iştirakçıları şəhidin şəxsi əşyalarından və fotolarından ibarət sərgi ilə tanış olublar.

Afərin Qulamzadənin həyat yolunu özündə əks etdirən videoçarx izlənildikdən sonra Lənkəran şəhər Heydər Əliyev Mərkəzinin direktoru Reyhanə Sadıxovanın çıxışı dinlənilib. O, 44 günlük Vətən müharibəsində göstərilən igidlikdən, şanlı Qələbəmizin tarixi əhəmiyyətindən danışıb.

Sonra şəhidin ailə üzvlərinə Heydər Əliyev Mərkəzinin rəsm studiyasında yağlı boya ilə çəkilmiş Afərin Qulamzadənin portreti təqdim edilib.





Məktəblilər Vətənə və şəhidlərə həsr olunan şeirlər söyləyiblər.

Sonra mərhum ifaçı, söz ustadı Elnur Valehin şəhid Afərin Qulamzadənin əziz xatirəsinə həsr etdiyi klip və digər ifaçıların şəhidlər haqqında mahnıları dinlənilib.

Afərin Qulamzadə ölümündən sonra “Vətən uğrunda”, “Xocavəndin azad olunmasına görə” medallarına və 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeninə layiq görülüb.

***

Masallı rayonunun Ərkivan qəsəbəsində 2020-ci ilin Tovuz döyüşləri (12-16 iyul) zamanı düşmən təxribatının qarşısını alarkən şəhid olmuş mayor Anar Novruzovun xatirəsi yad edilib.

Əvvəlcə şəhidin ailə üzvləri, hərbçi yoldaşları, müharibə iştirakçıları, ictimaiyyət nümayəndələri qəhrəmanın məzarını ziyarət edib, ruhuna dualar oxuyublar. Sonra anım tədbiri şəhidin evində davam edib.

Şəhidin hərbçi yoldaşları – ehtiyatda olan polkovniklər Vidadi Cahangirov, Şirzad Hüseynov, mayor Zaur Əliyev, kursant yoldaşı mayor Pərviz Salayev xatirələrini bölüşüblər. Qəhrəmanın qardaşı Sücəddin Novruzov şəhid ailələrinə göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Qeyd edək ki, Anar Novruzov ölümündən sonra 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif olunub.

# Mətbuatımızın bayramı münasibətilə



Astara rayon Mərkəzi Kitabxanasında 22 iyul – Milli Mətbuat Günü münasibətilə tədbir keçirilib.

Kitabxananın direktoru vəzifəsini müvəqqəti icra edən Emil Baxşıyev qeyd edib ki, böyük maarifçi və ziyalı Həsən bəy Zərdabinin 22 iyul 1875-ci ildə nəşr etdirdiyi “Əkinçi” qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı bütün dövrlərdə həqiqət carçısı olub, cəmiyyəti düşündürən problemləri, dövrün mütərəqqi ideyalarını əks etdirib. Mətbuatımız xalqın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynayıb. “Əkinçi”nin cəmi 56 nömrəsi çap olunsa da, o, millətin aynası olub, Azərbaycan jurnalistikasının bayraqdarına çevrilib.

Kitabxananın xidmət şöbəsinin müdiri Yaqut Nəzərova məruzə ilə çıxış edərək milli mətbuatımızın keçdiyi tarixi yol barədə məlumat verib. Digər çıxışlarda da Azərbaycan mətbuatında “Əkinçi”nin açdığı cığırdan bəhs olunub.

# Molla Vəli Vidadinin 315 illiyi qeyd olunub

Masallı rayon Mərkəzi Kitabxanasının Heydər Əliyev Mərkəzində fəaliyyət göstərən Qodman kənd kitabxana filialında klassik poeziya ənənələri ilə yanaşı, xalq ruhunda realist əsərləri ilə ədəbiyyatımızı zənginləşdirən şair Molla Vəli Vidadinin (1709–1809) anadan olmasının 315 illiyi ilə əlaqədar tədbir keçirilib.



Tədbirdə Heydər Əliyev Mərkəzində fəaliyyət göstərən rəsm dərnəyinin üzvləri iştirak ediblər.

Kitabxana filialının müdiri Sevanə Mənsimova çıxış edərək şairin həyat yolu və yaradıcılığından danışıb. Bildirilib ki, M.V.Vidadinin yaradıcılığında vətənə, torpağa və insanlara məhəbbət yüksək bədii dillə ifadə olunub.

# Sərgi, tədbir, yubiley, səyyar kitabxana...






Şəki şəhər Narınqala Folklor evində “Yaradıcı sənayelər” layihəsi çərçivəsində, qadınların asudə vaxtlarının səmərəli dəyərləndirilməsi məqsədilə “Zərif qadın əlləri” adlı sərgi keçirilib.

***

Masallı rayon Mərkəzi Kitabxanasında şair Azad Talışoğlunun (Azad Əkbər oğlu Quliyev; 1924–2008) 100 illiyi ilə əlaqədar “Beynəlmiləlçi və humanist şair” mövzusunda tədbir keçirilib. Bildirilib ki, şair mənalı və dolğun ədəbi yaradıcılıq nümunələri ərsəyə gətirib. O, “Çiçəkli diyar”, “Ana məhəbbəti”, “Vətən eşqi” və s. kitabların müəllifidir.

***

Astara Mərkəzi Kitabxanası Xidmət şöbəsinin əməkdaşları “Astaralı ziyalılarımızı tanıyaq” layihəsi çərçivəsində rayon sakini Məmmədova Dilarə Murtuza qızına evində kitabxana xidməti göstəriblər. Dilarə Məmmədova uzun illər pedaqoji fəaliyyətlə məşğul olub. Eyni zamanda ədəbi əsərlər qələmə alıb. “Tənha çiçəklər”, “Qartal nə üçün qıy vurur”, “Sevgi fəryadı”, “Səni düşünürəm”, “O tayda yarım qalıb” kimi nəsr nümunələri və şeirlərdən ibarət kitabların müəllifidir.

***





Biləsuvar Dövlət Rəsm Qalereyasında “Dünyamızı yaşıllaşdıraq” adlı rəsm sərgisi açılıb. “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində təşkil olunan sərgidə Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin rəis müavini Emin Mustafayev, mədəniyyət işçiləri, rəssamlar və ictimaiyyət nümayəndələri iştirak ediblər. Sərgidə qalereyanın dərnək üzvlərinin çəkdikləri əsərlər yer alıb. Sonda sərgidə iştirak edənlərə fəxri fərman təqdim edilib.

***

Astara Dövlət Rəsm Qalereyasında rəssamlıq dərnəyinin fəal üzvləri üçün açıq havada sərgi-plener təşkil edilib. Rəssam F.Quliyevin təşkilatçılığı ilə keçirilən və 10 şagirdin iştirak etdiyi sərgi-plenerdə yağlı, akrilik və sulu boya vasitəsilə kətan, eləcə də kağız üzərində mənzərələr əks olunub.

***

Masallı rayon Mərkəzi Kitabxanasında görkəmli yazıçı, dramaturq, mətbuat xadimi, pedaqoq Cəlil Məmmədquluzadənin (1869–1932) anadan olmasının 155 illiyi ilə əlaqədar tədbir keçirilib. Çıxışlarda qeyd olunub ki, Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatında kiçik həcmli hekayənin böyük ustadıdır. Qori Müəllimlər Seminariyasını bitirən ədib bir müddət İrəvan quberniyasının kəndlərində müəllimlik edib. İlk bədii əsəri sayılan “Çay dəsgahı” alleqorik pyesini, “Danabaş kəndinin əhvalatları” povestini bu dövrdə qələmə alıb. Ömər Faiq Nemanzadə ilə birlikdə “Molla Nəsrəddin” jurnalını təsis etməklə güclü mətbuat ənənəsi yaradıb. Onun “Ölülər” tragikomediyası, “Anamın kitabı”, “Dəli yığıncağı” və digər pyesləri Azərbaycan ədəbiyyatının qiymətli nümunələrindəndir.

# “Şahdağ”da qaçış festivalı




“Şahdağ” Turizm Mərkəzinin və Dağçılıq idman klubunun birgə təşəbbüsü ilə növbəti “Şahdağ qaçış festivalı” təşkil edilib.

Mərkəzdən verilən məlumata görə, ikinci dəfə keçirilən yarışın məqsədi Azərbaycanda qaçış idman növlərini inkişaf etdirmək, sağlam həyat tərzini təbliğ etmək və insanlar arasında idmana marağı artırmaqdır.

İki gün davam edən yarışda 4 kateqoriya üzrə 500-ə yaxın iştirakçı vertikal qaçış və cığır qaçışı üzrə birincilik uğrunda mübarizə aparıblar.

Qaliblərə “Şahdağ” Turizm Mərkəzi və tədbirin təşkilində iştirak edən digər təşkilatlar tərəfindən hədiyyələr verilib, medallar təqdim edilib.

Festival zamanı tədbirə qatılan böyüklər və uşaqlar üçün əyləncəli kostyumlarda müxtəlif qaçış yarışları da təşkil olunub, musiqili proqram nümayiş etdirilib.

# Estetik tərbiyə və şəxsiyyətin mənəvi zənginliyi

Astara rayon Heydər Əliyev Mərkəzində Ceyhun Babayev adına şəhər 3 saylı tam orta məktəbin müəllim və şagirdlərinin iştirakı ilə “Estetik tərbiyə və şəxsiyyətin mənəvi zənginliyi” mövzusunda tədbir keçirilib. Tədbir “Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı”nın icrası ilə əlaqədar təşkil olunub.

Heydər Əliyev Mərkəzinin direktoru Kübra Səmədova, əməkdaşlar Elza Kazımova və Aygün Rufullayeva mövzu ilə bağlı çıxış ediblər.

Sonda tədbir iştirakçıları Heydər Əliyev Mərkəzinin elektron kitabxanasında saxlanılan nəşrlərdən təşkil olunmuş sərgiyə baxıblar.

# Amerikalı pianoçu Heydər Əliyev Mərkəzində çıxış edəcək



Tanınmış amerikalı pianoçu Mark Demiş (Mark Damisch) dünya turu çərçivəsində avqustun 19-da Bakıda, Heydər Əliyev Mərkəzində "Hərəkət" ("Mouvement") adlı konsert proqramı ilə çıxış edəcək.

Qeyd edək ki, Mark Demiş ilk dəfə 70-ci illərdə hələ yeniyetmə ikən musiqiçi kimi müxtəlif ölkələrə qastrola çıxıb. Həmin dövrdə o həm də oğlanlar xoru ilə birgə vokal qrupunun tərkibində çıxış edib.

İfaçının yaradıcı tərcümeyi-halına bir neçə dünya turu, yüzlərlə konsert daxildir. Mark Demişin Almaniya, Avstraliya, Çin, Hindistan, İsrail, Misir, Niderland, Polşa, Rusiya, Vyetnam, Yaponiya, Yeni Zelandiya – ümumilikdə 70-dən çox ölkədə fortepiano konsertləri olub.

Pianoçu hüquqşünas ixtisası üzrə də təhsil alıb və həmin sahə üzrə işləyib. Musiqiçi kimi sənətinə 19 il fasilə verib, amma 2000-ci ilin yayında yenidən səhnəyə qayıtmaq qərarına gəlib.

# Xətai Sənət Mərkəzində miniatür əsərlər guşəsi



Şərq xalqları mədəniyyətinin maraqlı və zəngin hissəsini təşkil edən Azərbaycan miniatür sənəti dünya incəsənət tarixində özünəməxsus yer tutur. Kitab (əlyazma) illüstrasiyası kimi yaranıb formalaşan Azərbaycan miniatür məktəbi XIV əsrin ortalarında qrafik və boyakarlıq üslublarının uğurlu sintezindən doğan bədii üslub kimi daha geniş yayılıb. Bu gün də bu qədim sənət yaşadılır, rəssamlarımız bir-birindən maraqlı əsərlər yaradırlar.

Təsadüfi deyil ki, Azərbaycan miniatür sənəti (müştərək nominasiyada) UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilib.



Baxış müxtəlifliyi ilə fərqlənən miniatür əsərləri və ənənə həvəskarlarını bir araya gətirmək məqsədilə Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı və Dövlət Rəsm Qalereyasının dəstəyi ilə Xətai Sənət Mərkəzində "Miniatür əsərlər guşəsi" yaradılıb.

Mərkəz "bir rəssamdan bir əsər" prinsipini əsas tutaraq guşəni daima yeniləməklə daha fərqli ekspozisiya yaratmağı qarşısına məqsəd qoyub və miniatür janrında işləyənlərin yaradıcılığını bu guşədə görmək arzusundadır.

# Memarlıq ixtisası üzrə qabiliyyət imtahanı keçiriləcək

Ali məktəblərə memarlıq ixtisası üzrə qəbul olmaq istəyən abituriyentlərin (həmçinin subbakalavrların) qabiliyyət imtahanında iştirak etməsi üçün qeydiyyat davam edir.

Dövlət İmtahan Mərkəzindən (DİM) bildirilib ki, qeydiyyat iyulun 23-ü başa çatacaq.

Memarlıq ixtisası üzrə müsabiqədə I ixtisas qrupunu seçmiş, müsabiqə şərtlərinə əsasən ümumi balı ən az 200 olan və qabiliyyət imtahanı komissiyası üzrə məqbul qiymət almış abituriyentlər (subbakalavrlar) iştirak edə bilərlər.

DİM onu da diqqətə çatdırıb ki, qabiliyyət imtahanında iştirak etmək üçün qeydiyyatdan keçən, lakin I ixtisas qrupu üzrə qəbul imtahanından ümumi balı 200-dən aşağı olan abituriyentlər ixtisas seçiminə buraxılmayacaq.



Xatırladaq ki, abituriyentlər (subbakalavrlar) yalnız rəsm fənnindən imtahan verirlər. İmtahandan 10 ballıq şkala üzrə 6 və daha yuxarı qiymət alan şəxslər məqbul qiymət almış hesab edilir və memarlıq ixtisası üzrə müsabiqədə iştirak etmək hüququ qazanırlar.

Qeyd edək ki, 17-18 iyul tarixlərində musiqi müəllimliyi ixtisası (32 və 33-cü komissiyalar) üzrə mərkəzləşdirilmiş qaydada ixtisas imtahanı keçirilib. DİM-dən bildirilib ki, imtahanlar Bülbül adına orta ixtisas musiqi məktəbi, Gəncə Dövlət Filarmoniyası və Naxçıvan Dövlət Universitetində təşkil edilib.

# "Batika kəlağayı sənətinin çağdaş varisi kimi inkişaf edir..."

## Tatyana Ağababayeva: "Bu gün ölkəmizdə sənətin bütün sahələri kimi, rəssamlığa da diqqəti görürük"

Tatyana Ağababayeva ilə bu ilin may ayında tanış olmuşdum. Rəssamlar İttifaqının Vəcihə Səmədova adına sərgi salonunda "Bir sərgi – bir ailə" devizi ilə təqdim olunan sərgidə Ağababayevlər ailəsinin rənglər dünyasına səyahət etmişdik. Atası – Əməkdar rəssam Odtekin Ağababayevin 95, özünün isə 70 illik yubileyinə həsr olunan sərgidə Tatyana xanım sənət dünyası haqqında bizə danışdı.

O, 1953-cü ildə Qazaxıstanın Almatı şəhərində dünyaya gəlib. Anası Valentina Ağababayevanın da rəssam olması onu rənglərin cazibəsindən çıxmağa qoymayıb. Əsasən batika janrı üzrə ixtisaslaşıb. Əsərləri həm mövzu, həm də bədii xüsusiyyətlərinə görə seçilir. "Baramaqurdu allegoriyası" əsəri bu çətin prosesi – ipəyin yaranmasını əks etdirirsə, "Xəzərin qoruyucu mələyi" əsəri ekoloji tarazlığa diqqət çəkir. "Əncir ağacının odası" təbiət, "Əks olunmuş dünya" triptixi isə itirilmiş sənət abidələri haqqındadır. Yeni rəssamın mövzu dairəsi geniş, ifadə imkanları zəngindir.

Rəssam deyir ki, ailə sərgisinə altı aydan çox hazırlaşıblar. Atasının ahıl yaşı və səhhətindəki problemlər ilə əlaqədar xeyli müddət bu sərgini reallaşdırmaq mümkün olmamışdı. Nəhayət, 15 may – Dünyada Ailə Günündə sərginin keçirilməsinə qərar veriblər. Ekspozisiyaya atasının, anasının və özünün əsərləri daxil edilib. O, təəssüf hissi ilə qardaşını yada salır. Deyir, ilk ailə sərgimiz 2001-ci ildə təşkil edildi və o zaman qardaşım hələ sağ idi...



Onu da qeyd edim ki, Tatyana Ağababayevanın qardaşı Aleksandr Ağababayev rəssam-fotoqraf olub. Dağlara qalxaraq maraqlı fotolar çəkərmiş. 2018-ci ildə növbəti çəkiliş zamanı Kabardin Balkar Respublikasının (RF) dağlıq ərazisində faciəli şəkildə vəfat edib. Tatyana xanımın övladları Aleksey və Nikolay da rəssamlıqla məşğul olurlar.

*– Tatyana xanım, niyə məhz batika janrında işləməyi seçdiniz?*

– İpək üzərində işləməyi sevirəm. İlk təhsilimi Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində almışam. 1982-ci ildə V.İ.Muxina adına Leninqrad Ali Rəssamlıq-Sənaye Məktəbinə (indiki Sankt-Peterburq Dövlət Rəssamlıq-Sənaye Akademiyası) qəbul olundum. Bədii-toxuculuq üzrə təhsil alırdım. Biz burada qobelendən ələ və bütün texnikaları öyrənirdik. Mənim diplom işim qobelen olub. Yəni birbaşa batikaya gəlməmişəm. İlk batika əsərimi ali təhsilimi bitirəndən bir neçə il sonra yaratmışam. "Şam işığında qadın" adlı həmin əsərimi Latviyada təşkil edilən qrup sərgisində nümayiş etdirmişəm.

*– Başqa hansı texnikalarda işləyirsiniz?*

– Akvarellə işləməyi çox sevirəm. Bu məndə yaxşı alınır. Düşünürəm ki, akvarel və batika texnika cəhətdən bir-birinə yaxındır.

*– Pedaqoji fəaliyyətlə məşğul olmusunuz?*

– Bəli, ilk vaxtlarda dərnəklərdə, Bakıdakı Rusiya Mədəniyyət Mərkəzində (Rus Evi), uşaq incəsənət məktəbində, özəl incəsənət mərkəzində rəsmdən, daha sonra "SABAH" qruplarında batika üzrə dərslər vermişəm. Hazırda özəl sifarişlər alıram, Demək olar ki, vaxtımın çoxunu atama həsr edirəm.

*– Sifarişləriniz olurmu?*

– Düzünü deyim ki, əvvəllər çox olurdu. Yəni sovet dönəmində bir sifarişlə bir mövsüm dolanmaq mümkün idi. Daha sonra zaman dəyişildi, sənətə tələbat azaldı. Bu gün ölkəmizdə yenidən sənətin bütün sahələri kimi, rəssamlığa da diqqəti görürük. Eyni zamanda hazırda batikaya da maraq artıb. Xüsusilə də, səfirliklər bu janrda əsərlər sifariş edirlər.



*– Əsərlərinizin əksəriyyəti təbiət mövzusundadır. Bu haradan qaynaqlanır?*

– Oğlanlarım balaca olanda vaxtımın çoxunu onlara həsr edirdim, indi isə atama. Həyatımın çox hissəsi bağda keçdiyi üçün mövzular da buradan qaynaqlanır. Fikir vermisinizsə, əncir ağacı, qum, Azərbaycan regionlarından Şəki mənim əsərlərimdə daha çox əksini tapır.

*– Batika janrı haqqında fikirləriniz maraqlı olar...*

– Batika qədim sənət növüdür. Bir neçə il əvvəl Malayziyada keçirilən batika üzrə beynəlxalq qurultayda ölkəmizi təmsil etdim. Malayziya, İndoneziya batikanın vətəni sayılsa da, bizim kəlağayıların tarixi də həmin dövrə təsadüf edir.



*– Çağımızda batika sənətinin inkişafını necə görürsünüz?*

– 2011-ci ilin sentyabrında Muzey Mərkəzinin sərgi qalereyasında Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə ilk dəfə "Bakıda batika həftəsi" keçirildi. Bu sərgi, həqiqətən, təqdirəlayiq idi. Dekorativ-tətbiqi sənət növlərindən olan batika Azərbaycanda xalqımızın qədim ənənələrə malik kəlağayı sənətinin çağdaş varisi kimi inkişaf edib zənginləşməkdədir. Orta əsrlərdən başlayaraq Şirvan, Basqal və Gəncədə ipəkçiliyin inkişafı ilə əlaqədar xalq sənətkarlarının, xüsusilə də, qadınların məşğuliyyət növü kimi bu sənəti yaşadanların sayı yüzlərlə olub. Qədim ipəkçilik, kəlağayı sənəti Rəna İbrahimbəyova, Cəlil Tarverdiyev, Ənvər Qarayev kimi müasir batika ustalarımızın yaradıcılığı sayəsində Azərbaycanda batikanın inkişaf etdiyi ölkələr arasında önəmli yer tutur.

*– Övladlarınız ailənin sənət ənənələrini davam etdirirlərmi?*

– Aleksey hazırda Rusiyanın Nijni Novqorod şəhərində memarlıq üzrə dosentdir, ali məktəbdə dərs deyir. Nikolay isə Bakıda kompüter texnologiyaları sahəsində çalışır. Hər ikisi bu sənəti də unutmur.

*– Maraqlı söhbətə görə təşəkkür edirəm.*

**Lalə Azəri**

# Təklif gəldi ki...



Tələb varsa, təklif var. Bu, iqtisadi, sosial, dərindən baxsaq, bəlkə də həyatın bütün müstəvilərində münasibətləri nizamlayan yazılmamış qanundur. Sənətə gəlincə... Bu sahə də istisna deyil. Əgər konkret teatrdan danışırıqsa, tamaşaçının tələbatını tutan teatrın tamaşaçısı olacaq.

Heç uzağa getməyək, hərçənd bəhs edəcəyimiz teatrın səhnə əsərlərinə baxmaq üçün, sözün gerçək mənasında, bir uzağa getmək lazım gəlir. Amma arada bir tələbatı nəzərə alıb tamaşalarını paytaxtın aparıcı teatrlarının səhnəsində də oynayırlar. Söhbət Bakı Uşaq və Gənclər Teatrından gedir. Daha doğrusu, kollektivin yekunlaşan mövsümdə son tamaşasından. Bu dəfə teatr "+13" tamaşasını Azərbaycan Dövlət Akademik Musiqili Teatrında, özü də tamaşadan öncə səhnədən bəyan edildiyi kimi icarə haqqı ödənilmədən oynadı. Əlbəttə, bir teatr kiçi, digər teatra təmənnasız yardım təklif edirsə, bundan gözəl nə ola bilər...

O ki qaldı tamaşaya, məlumat üçün deyək ki, indiyədək bir neçə pyesi dünyanı gəzən fransız yazarı, rejissoru Raffi Şartın "Arvadımın adı Morisdir" pyesini Azərbaycan dilində ilk dəfə məhz bu teatrda səhnələşdirib. Özü də diqqəti çəkəcək "Arvadım olun" ismi ilə. Yeri gəlmişkən, bu, tamaşaçını cəlb etmək üçün uğurlu bir addır. Axı fransızlar ailə, kişi-qadın münasibətlərində nə qədər praqmatik olsalar da, belə birbaşa təklif diqqəti cəlb edir. Tamaşanın quruluşçu rejissoru Elşən Zeynallı, tərcümə edəni Məlahət Əhməd, rəssamı Sevda Məmmədova, musiqi tərtibatçısı Yusif Rüstəmovdur.

Bir qədər baxmaq kifayətdir ki, tamaşanın heç də evlilik təklifi yox, sevgilisi Katrin ilə qanuni arvadı Maronun qarşılaşmasını ertələmək istəyən Jorj Odfeyin xeyriyyə təşkilatında çalışan Moris Lyarrenə çarəsizlikdən etdiyi təklif olduğunu anlayasan. Jorj varlı ailədən çıxmış arvadının kölgəsində yaşayaraq, iş görmək, böyük pullar qazanmaq arzularını gerçəkləşdirmək kimi qələmə verən boşboğazdır. Aktyor Mehman Piriyevin ifasındakı Jorj bizə əski fransız, italyan komik filmlərindən tanıdığımız tipajları xatırladır. İnsafən, aktyor çox yaxşı ümumiləşmiş obraz yarada bilib. Hətta o, arvadının dolaba sığışmayan paltarlarından əyninə keçirib guya Moris – Maronun bacısı kimi səhnəyə çıxdığı zaman da inandırıcıdır və daha çox gülüş doğurmaq naminə əndazəni aşmır.

Tamaşanın ikinci ağırlıq mərkəzi "Qardaşlıq köməyi" xeyriyyə təşkilatının əməkdaşı Moris Lyappendir ki, biz bu rolda Azərbaycan teleseyrçisinin yaxşı tanıdığı aktyor Niyaz Qasımovu gördük. Moris imkanlı insanların artıq işlətmədiyi əşyaları, geyinmədiyi libasları imkansızlara bağışlamaqdan, çarəsizlərin həyatına az da olsa sevinc qatmaqdan zövq alır. Elə onun Odfeylərin mənzilinə gəlişinin də səbəbi madam Maronun geyinmədiyi paltarları aparmaqdır. Amma Jorj bura gələrək Maron (Könül Şahbazova-Qasımova) ilə haqq-hesab çəkmək istəyinin çox pis qurtaracağına inandırır və ona bu köməyin qarşılığında pul təklif edir. Moris də... "Qardaşlıq köməyi" təşkilatının üzvü kimi Maron qiyafəsində Katrinlə (Gülər Ləzgiyeva) görüşməyə razılaşır. Qadın qiyafəsinə girərək oyunbazlıq etmək "Qardaşlıq köməyi" təşkilatının təklif etdiyi xidmətlər paketinə daxil olmasa da, vicdanlı vətəndaş Lyappen bu pulu imkansızlara xərcləmək niyyətindədir.

Elə əsl həngamə də bundan sonra başlayır. Katrin yalançı, söz verdiyi kimi arvadını boşayıb onunla evlənməyən Jorjdan onun arvadına şikayətçidir. Söz savaşı, isterika savaşa keçir və... Katrin bayılır.

Bu məqamda Maronun mənzilini almaq istəyən Madam və Müsyö Truaballar (İlhamə Əhmədova və Rauf Hüseynov) təşrif buyururlar. Yalançı madam Maronun öz mənzilinə yaxşı bələd olmaması onları çaşdırsa da, Katrinin əri (bəli, "Maronu boşa, məni al" deyən Katrin də nikahlı imiş!) Rojenin (Sənan Fərzəliyev) gəlişi ilə aləm bir-birinə dəyir. Müsyö Truaballı Jorj zənn edən Roje onu döyür.



Əslində, bu səhnə əsərində çıxış edən 7 aktyorun heç biri ustalıq və səhnə performansı baxımından o qədər də fərqlənmədi. Birhissəli komediya elə bir nəfəsə oynanıldı. Bununla belə, deməliyik ki, Mehman Piriyev ilə Niyaz Qasımov tamaşanın qoşa ulduzu oldular.

Bəs sonluq necə oldu?

Truabal cütlüyü mənzili almaq niyyətindən daşındı. Katrin ilə Roje barışdı. Moris çıxıb getdi məhəllədəki digər mənzillərə baş çəkib "Qardaşlıq köməyi" təşkilatının xoşməramlı niyyətlərindən danışmağa.

Maron? Hadisələrin sonuna gəlib çatan Maron da, deyəsən, Jorjdan aralandı.

Bəs Jorj? Qadın qiyafəsində səhnəyə çıxıb özünü Rojeyə Maronun bacısı kimi təqdim edən Jorj hər şey bitəndən sonra üzünün makiyajını silib əvvəlki görkəminə qayıdır və... salona düşüb gənc bir xanımın əlindən tutaraq səhnəyə qaldırır, onunla rəqs edir. Yəni ki, bu Jorj düzələn deyil! Amma çətin ki, bir də "Qardaşlıq köməyi" təşkilatından kimsə onun "Arvadım olun" təklifinə razılaşa...

Təklif demişkən... İşdir, əgər yeni mövsümdə afişalar sizi bu tamaşaya baxmağa dəvət etsə, düşünmədən razılaşın. Çünki bu tamaşada sizi maraqlı komik situasiyalar, mükəmməl aktyor oyunu gözləyir. Əsər fransız müəllifinin qələmindən çıxsa da, bəzi tiplər sizə tanış gələcək.

**Gülcahan Mirməmməd**

№54 (2119)
19 iyul 2024
www.medeniyyet.az

# Türkiyə və Azərbaycan tarixinə dair birgə layihələr müzakirə edilib

Türkiyədəki səfirliyimizin nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) direktoru Samir Abbasov Ankaradakı Türk Tarix Qurumunun rəhbəri professor Yüksel Özgenlə görüşüb.



Yüksel Özgen ölkəmizə səfərləri, rəhbəri olduğu təşkilatın Azərbaycan tarixi ilə bağlı layihələri və nəşrləri haqqında danışıb. Bildirib ki, Türk Tarix Qurumunun fəaliyyətinin əsas məqsədi türk xalqlarının tarixi və Türkiyə tarixi ilə bağlı mövzuların, türklərin bəşəriyyətə verdiyi töhfələrin araşdırılması, təbliği və elmi dəyəri olan əsərlərin nəşr edilməsidir.

AMM-in direktoru Samir Abbasov Azərbaycan-Türkiyə qardaşlığının iki ölkənin qurumları arasında əməkdaşlığa mühüm zəmin yaratdığını söyləyib, Türk Tarix Qurumu ilə əməkdaşlığın əhəmiyyətini qeyd edib. O, türkiyəli alimlərə ortaq tariximizin birgə tədqiqi, Qərbi Azərbaycandan soydaşlarımızın öz yurdlarından dəfələrlə deportasiyası, azərbaycanlıların bu torpaqlarda yaratdığı böyük mədəni irs və abidələr mövzusunda elmi tədqiqatların aparılmasını təklif edib.

Azərbaycanın Türkiyədəki səfirliyinin birinci katibi İslam Quliyev də Türk Tarix Qurumunun ölkəmizin alimləri ilə birgə tədqiqatlar aparmasının əhəmiyyətli olacağını vurğulayıb. Səfirliyin və onun nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzinin birgə layihələrə daim dəstək göstərməyə hazır olduğu vurğulanıb.

Görüşdə irəli sürülmüş təkliflərlə bağlı əməkdaşlığa və ortaq layihələrə dair razılıq əldə edilib.

# Məşhur səyyahın əsəri ana dilimizdə çapdan çıxıb

Azərbaycanlı səyyah, coğrafiyaçı, tarixçi, etnoqraf, filosof və şair Hacı Zeynalabdin Şirvaninin (1780–1838) "Səyahət bağları" ("Riyaz əs-siyahət") əsərinin II hissəsinin I cildi ana dilimizdə çap olunub.

Əsəri farscadan Azərbaycan dilinə AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu İran tarixi və iqtisadiyyatı şöbəsinin elmi işçisi Şahin Yəhyayev tərcümə edib.

Kitabın elmi redaktoru coğrafiya elmləri doktoru, professor Zakir Eminov, rəyçiləri tarix elmləri doktoru, professor Şahin Fazil və tarix elmləri doktoru Vasif Qafarovdur.

Qeyd edək ki, Hacı Zeynalabdin Şirvaninin ilk əsəri olan "Səyahət bağları" görkəmli tarixçi, şair, ictimai xadim Abbasqulu ağa Bakıxanovun diqqətini cəlb edib və onu "zəngin və faydalı xəzinə" adlandırıb. Akademik B.A.Dorn "Səyahət bağları"nı "ən yaxşı kamil mənbə" və Çarlz Rio isə "tarixi və bioqrafik məlumatlarla zəngin olan coğrafi bir əsər" adlandırıb. Şərqşünas N.B.Xanıkov, maarifçi, ədəbiyyatşünas F.Köçərli, səyyah N.Mikluxa-Maklay, şərqşünas Anri Massen də əsəri yüksək qiymətləndirib. Müəllif əsərin ikinci hissəsini 1827-ci ildə Şiraz şəhərində tamamlayıb.

546 səhifədən ibarət "Səyahət bağları" tarixçilər, etnoqraflar, coğrafiyaşünaslar, dinşünaslar və digər ixtisas sahibləri üçün mühüm mənbə ola bilər.

# Rusiyalı professor Milli Azərbaycan Ədəbiyyatı Muzeyində

Moskva Dövlət Pedaqoji Universitetinin professoru Lyudmila Bojenkova Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin qonağı olub.



Muzeydən bildirilib ki, çoxsaylı dərslik və metodik vəsaitin müəllifi pedaqoji elmlər doktoru olan Lyudmila Bojenkova ölkəmizə ilk dəfə gəlib.

Muzeyi gəzən qonaq dahi şair Nizami Gəncəviyə həsr olunmuş ekspozisiyaya böyük maraq göstərib. Nizami Gəncəvinin 800 illik yubileyi ilə əlaqədar rəssam Vaqif Hüseynovun çəkdiyi və mühüm tarixi hadisəni əks etdirən "Ermitaj. 1941-ci il. Nizami yubileyi" tablosu onun xüsusilə diqqətini çəkib. Mirzə Fətəli Axundzadənin gənc yaşlarında yazdığı "Puşkinin ölümünə Şərq poeması" barədə məlumatı dinləyən alim bu əsərlə Mixail Lermontovun Puşkinə həsr etdiyi "Şairin ölümünə" şeiri arasında müqayisələr aparıb. Eləcə də Azərbaycanın müxtəlif dövrlərdə yaşamış qadın şairlərinin həyat və yaradıcılığı ziyarətçidə xoş təəssürat yaradıb.

# Görkəmli musiqişünas, fədakar pedaqoq

## Elm və sənət meyarlarında xüsusi prinsipiallığı ilə seçilirdi

**Ramiz Zöhrabov – 85**

Musiqişünaslıq elmimizin inkişafı və təbliğində özünəməxsus yeri olan alimlərimizdən biri də Xalq artisti, "Şöhrət" ordenli, Prezidentin fərdi təqaüdçüsü, sənətşünaslıq doktoru, professor Ramiz Zöhrabov olub. O, elmi fəaliyyətə yanaşı, pedaqoq kimi yeni musiqişünaslar nəslinin yetişməsi üçün də böyük fədakarlıq göstərib. Bu il görkəmli alimin anadan olmasının 85 illiyidir.

Ramiz Fərzulla oğlu Zöhrabov 2 may 1939-cu ildə Bakı şəhərində dünyaya göz açıb. Erkən çağlardan musiqiyə maraq göstərib. Orta məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra 1947–1958-ci illərdə Azərbaycan Dövlət Konservatoriyası (indiki BMA) nəzdində Orta ixtisas musiqi məktəbində təhsil alıb, 1958–1960-cı illərdə konservatoriyanın İfaçılıq fakültəsinin simli alətlər şöbəsində oxuyub. 1965-ci ildə isə bu təhsil ocağının musiqişünaslıq ixtisası üzrə bitirib.

Ramiz Zöhrabov təyinatla Gəncə şəhərində Qəmbər Hüseynli adına Orta ixtisas musiqi məktəbində əmək fəaliyyətinə başlayır. 1969-cu ildə konservatoriyada pedaqoq kimi işə götürülür. O, pedaqoji fəaliyyəti dövründə tədrisin keyfiyyətinin yüksəldilməsinə xüsusi diqqət yetirir. Bu cəhətdən onun tərtib etdiyi tədris proqramları, yazdığı dərs vəsaitləri, dərsliklərində də özünü göstərir.

Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi kafedrasında müəllim, baş müəllim, kafedranın müdiri işləyən Ramiz Zöhrabov 1990-cı ildən 2012-ci ilədək Azərbaycan Bəstəkarlar İttifaqı idarə heyətinin katibi vəzifələrində çalışır. Bu müddət ərzində vaxtının böyük bir hissəsini Azərbaycan muğamının araşdırılmasına həsr edir. Alimin "Azərbaycan muğamının nəzəri problemləri", "Azərbaycan rəngləri", "Muğam", "Azərbaycan modal musiqisi" adlı elmi əsərləri musiqişünaslar üçün dəyərli masaüstü kitaba çevrilir. Eyni zamanda bəstəkarlıq istedadı olan musiqişünasın kamança və piano üçün "Monoloq", xalq çalğı alətləri orkestri üçün "Laylay", "Ədəbi lövhələr" süitası, Bəxtiyar Vahabzadə, Tofiq Mütəllibov, Rüfət Əhmədzadə və başqa şairlərin əsərlərinə yazdığı mahnılar maraqla qarşılanıb. O, mahnı yaradıcılığından danışarkən bu sahədəki çatışmazlıqları obyektiv şəkildə dilə gətirib: "Vaxtilə xalq mahnıları adı ilə tarixə düşən kiçik həcmli əsərlər böyük məna yükü daşıyır və bu səbəbdən də tarix onları yaşadır. Lakin indiki mahnı yaradıcılığının mətn və musiqisində düşündürücü məqamlar tapa bilmirik. Bunun səbəbi sənətə təsadüfi musiqiçi axınının olmasıdır...".



Ramiz Zöhrabov mədəniyyətimizin himayədarı Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə Heydər Əliyev Fondunun reallaşdırdığı mədəni proqramlarda, xüsusilə də muğam müsabiqələrində yaxından iştirak edib. Prinsipial insan olan alim sənətlə bağlı heç kəsə güzəştə getməyib. Onun bu yanaşma tərzi musiqişünaslıq sahəsinin inkişafına xidmət edib. Tamaşaçıların daha çox estetik zövq alması üçün muğamın dərin qatlarına nüfuz edib, eyni zamanda yeri gəldikdə tənqidi qeydlərini də deməkdən çəkinməyib.

Ramiz Zöhrabovun musiqişünas-alim kimi yaradıcılığının bir qolu da maarifçiliklə bağlı olub. Onun televiziya və radioda müəllifi və aparıcısı olduğu "Bəstəkarlarımızın portreti", "Sənətə həsr olunmuş ömür", "Poeziya və musiqi", "Romans axşamı" və xüsusilə "Xalq musiqisi inciləri" silsiləsindən "Muğam sənəti haqqında" verilişləri tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

Görkəmli alim "Azərbaycan musiqi ədəbiyyatı", "Şifahi ənənəli Azərbaycan professional musiqisi" adlı dərsliklərin, bəstəkarlarımızın yaradıcılığına dair 20 kitabın, 350 elmi-publisistik məqalənin, eyni zamanda bir sıra musiqi əsərlərinin müəllifidir. Onun 1983-cü ildə Moskvada, 1991-ci ildə Təbrizdə nəşr edilən "Azərbaycan təsnifləri", "Azərbaycan zərbi-muğamları", "Muğam", "Bəstəkarlarımızın portreti" kitabları musiqi ictimaiyyətinin diqqətini çəkib. Bu gün də alimin kitabları musiqişünaslıq üzrə təhsil alan tələbələr, eləcə də müəllimlər üçün qiymətli mənbədir. Onun Azərbaycan musiqişünaslığının uğuru sayılan araşdırmaları respublikamızın hüdudlarından kənarda da nəşr olunaraq tədqirlə qarşılanır.

Professor Ramiz Zöhrabovun musiqi mədəniyyətimizin inkişafı sahəsində çoxillik səmərəli fəaliyyəti yüksək qiymətləndirilib. O, "Əməkdar incəsənət xadimi" (1990), "Xalq artisti" (2008) fəxri adlarına, "Şöhrət" (2009) ordeninə və Prezidentin fərdi təqaüdünə layiq görülüb.

Ömrünü musiqişünaslıq elminin inkişafına həsr edən Ramiz Zöhrabov 24 aprel 2017-ci ildə vəfat edib, II Fəxri xiyabanda dəfn olunub.

**Savalan Fərəcov**

# Şahtaxtı kəndində arxeoloji tədqiqat



AMEA Arxeologiya və Antropologiya İnstitutu Naxçıvan Muxtar Respublikası Kəngərli rayonunun Şahtaxtı kəndində elmi tədqiqat aparıb.

İnstitutdan bildirilib ki, dosent Qəhrəman Ağayevin rəhbərlik etdiyi ekspedisiya qazıntı işlərini əsasən 30 hektardan artıq ərazini əhatə edən nekropolda aparıb. Ekspedisiya müddətində 7 qəbir abidəsi aşkar edilərək tədqiq olunub. Ən böyük qəbrin uzunluğu 2,8 metr, eni 0,90 metr, dərinliyi isə 1,30 metrdir. Ən kiçik qəbrin uzunluğu 1 metr, eni 0,80 metr, dərinliyi isə 1 metrdir.

Qəbirlərdən küpə, nehrə, qazan, kuzə, cam və sair tipli gil qablar, tunc qolbaqlar, əqiqdən hazırlanmış muncuqlar aşkar edilib. Tədqiq edilən qəbirlərin hamısı Son Tunc – Erkən Dəmir dövrünə aiddir.

Aparılan arxeoloji tədqiqatlarla Azərbaycan arxeologiyasının öyrənilməsi baxımından maraqlı elmi nəticələr əldə etmək mümkündür. Şahtaxtıda insanlar Eneolit dövründən məskunlaşıb, heç bir yerdəyişmə etmədən intensiv həyat tərzi keçirib. Şahtaxtı tayfaları yalnız Orta əsrlər dövründə, çox güman ki, coğrafi şəraitlə bağlı olaraq qərb və cənub-qərb tərəfə yönəliblər və bu gün də həmin ərazidə yaşayırlar. Maraqlı faktlardan biri də ondan ibarətdir ki, Şahtaxtı yaşayan qədim tayfalar özlərindən əvvəl yaşayan tayfalara hörmətlə yanaşıb, onların yaratdıqları maddi mədəniyyət qalıqlarına toxunmayaraq öz mədəniyyətlərini yaradıblar.

Ümumiyyətlə, nəinki Azərbaycan, eyni zamanda Yaxın Şərq və Cənubi Qafqaz arxeologiyası üçün əhəmiyyət kəsb edən belə bir abidənin daha da dərindən öyrənilməsi vacibdir.

# Daşdan yonulmuş insan üzü

## Qazaxıstanda arxeoloji tapıntı müzakirələrə səbəb olub

Qazaxıstanın Akmola vilayətindəki arxeoloji kəşf alimlərin diqqətini cəlb edib və onun mənşəyi müzakirələrə səbəb olub.

Tapıntı barədə Qazaxıstan Fövqəladə Hallar Nazirliyi məlumat yayıb. Sandıktau rayonunun fövqəladə hallar şöbəsinin əməkdaşları profilaktik tədbir keçirərkən qəribə bir artefakt – daşdan yonulmuş insan üzü aşkarlayıblar.

Qədim heykəltəraşlıq əsərinin hansı dövrə aid olduğunu müəyyən etmək çətindir. Bu barədə alimlər müxtəlif fikirlər söyləyirlər.

Bəziləri tapıntının Tunc dövrünə aid olduğunu, digərləri isə daha sonrakı dövrə məxsusluğunu iddia edirlər. Bu tapıntının Sibirdəki artefaktlarla oxşarlığı da qeyd olunur.



# Özbək gənclər Ədəbiyyat İnstitutunda olublar

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Özbəkistandan gəlmiş istedadlı gənclərlə görüş keçirilib.



Tədbiri institutun direktor müavini filologiya üzrə fəlsəfə doktoru, dosent Mehman Həsənli açaraq bildirib ki, həm Azərbaycanın, həm də Özbəkistanın qədim və zəngin ədəbiyyat tarixi var. Klassik dövrdən başlayan ədəbi ənənələr sovet dövründə də davam edib. Yaxın tarixdə bu istiqamətdə daha çox işlər görülüb.

Sonra Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin nümayəndəsi, filologiya üzrə fəlsəfə doktoru Kərimulla Məmmədzadə çıxış edərək qonaqlara göstərilən diqqət və qayğıya görə təşəkkür edib, qardaş ölkədən gələn gənclərin səfərinin məqsəd və məramı haqqında məlumat verib.

Özbəkistanlı qonaqlardan şair Nəzakət Rəsul (Qasımova), yazıçı Gülnarə Xocayeva, rəssam, dizayner Diyara Tilavova paytaxtımız haqqında xoş təəssüratlarını bölüşüblər. Ədəbiyyat İnstitutunun əməkdaşlarından filologiya üzrə fəlsəfə doktoru İsmixan Osmanlı, Mənzər Niyarlı, gənc tədqiqatçılardan Sənubər Səmədova, Şəbnəm Mirzəzadə çıxışlarında ölkələrimiz arasında ədəbi-mədəni əlaqələrin əhəmiyyətindən söz açıblar.

Xurliman Qaybullayeva və Nəsibə Xocayevanın dütarda ifaları maraqla dinlənilib.

Daha sonra qonaqlar Ədəbiyyat İnstitutu ilə yaxından tanış olublar.

**Pressfakt**

# İllər öncə qəzetlər nədən yazırdı?

## Milli Kitabxananın dövri mətbuat arxivindən (21)

Qızmar yay günlərində insanların ən çox ehtiyac duyduğu istirahətdir. Mədəni istirahət imkanı olarsa – daha da yaxşı. Belə bir imkanın təmin edilməsi isə mədəniyyət ocaqlarının fəaliyyəti, tarixi-mədəni irs məkanlarındakı şərait və göstərilən xidmət səviyyəsi ilə bilavasitə bağlıdır.

Mətbuat xronikasından növbəti seçməmiz 76 il əvvələ aid olsa da, problem elə günümüzdə də aktualdır. 46 il əvvələ aid digər bir mətbu qeyd də elə bil indi yazılıb...

Seçmələrdə dövrün orfoqrafiyası saxlanılıb...

### Zəhmətkeşlərin mədəni istirahətinə diqqət ayrılmalı

Bakı zəhmətkeşləri yayda öz istirahət vaxtlarını Buzovnada keçirirlər. Xüsusilə istirahət günlərində on minlərlə adam burada, dəniz kənarında, bağlarda və istirahət evlərində dincəlir. Lakin zəhmətkeşlərin mədəni istirahətini təmin etmək üçün burada lazımı şərait yaradılmayıb. Buzovnada nə idman meydançası, nə kinoteatr, nə də klub yoxdur. Buzovna mədəniyyət sarayının təmirinə ötən il 20.000 manat pul buraxılıb. Təmirin keyfiyyətinə fikir verilmədiyindən mədəniyyət evinin qapı və pəncərələri indidən sınmış, dəhlizi uçmuşdur. Sarayın gözəl bağçası baxımsızlıq üzündən bərbad hala düşmüşdür.

Şəhər mədəni-maarif şöbəsi keçən il Azərbaycan kinolaşdırma idarəsinin Maştağa şöbəsilə müqavilə bağlayaraq ayda azı 20 dəfə kino göstərilməsini qərara almışdır. Son zamanlar isə bir dəfə də olsun kino göstərilməmişdir. Əlaqədar təşkilatlar bu nöqsanları gördükləri halda nədənsə susur, əllərini ağdan-qaraya vurmaq istəmirlər.

*"Kommunist" qəzeti, 18 iyul 1948-ci il*

### Tarixi abidələri hamı qorumalıdır

Şəhərimizin müxtəlif guşələrindəki, habelə Abşeronun tarixi abidələri turistlərin hədsiz marağına səbəb olur. Bakının qonaqları bu abidələrə, milli ornamentlə naxışlanmış binalara həvəslə baxırlar. Belə abidələri hamılıqla mühafizə edilməli, onların korlanmasına qarşı hər bir sakin ciddi mübarizə aparmalıdır.

Təəssüf ki, gərgin zəhmət və xeyli vəsait hesabına bu binaların fasadlarında düzəldilmiş naxışlar bəzən təmir işləri aparılarkən lazımsız bir iş kimi qoparılıb atılır. Belə hallara əsla yol verilməməlidir.

*"Bakı" qəzeti, 27 iyul 1978-ci il*



# Milli mətbuat tariximiz muzeylərdə

İyulun 22-də Azərbaycan milli mətbuatının əsasının qoyulmasının 149-cu ildönümü tamam olur. 1875-ci ilin həmin günü böyük maarifpərvər ziyalı, təbiətşünas alim Həsən bəy Zərdabinin redaktorluğu ilə ana dilimizdə ilk mətbu orqan – "Əkinçi" qəzeti nəşrə başlayıb. İki il ərzində 56 sayı işıq üzü görüb.

Bu qısa müddətdə qəzet mədəni-maarif tariximizdə, Azərbaycan xalqının milli oyanışı və özünüdərki yolunda tarixi səhifə açmağa nail olub. "Əkinçi"nin nəşrə başladığı tarix təqvimimizə Milli Mətbuat Günü – media işçilərinin peşə bayramı kimi yazılıb.

***

Muzeylərin səssiz divarları arasında adətən tarix, mədəniyyət və sənətə aid izlər axtarırıq. Lakin milli mətbuatımızın səhifələri də bu məkanlarda öz yerini alır, zamana meydan oxuyan, xalqın ruhunu əks etdirən sənədlər kimi... Bu mətbuat nümunələri, bir vaxtlar geniş kütlələrə yayılmış, insanların gündəlik həyatına təsir etmiş xəbərlər, məqalələr, ədəbi əsərlər, elan və afişalardır.






Otağın divarında "Molla Nəsrəddin" jurnalı redaksiyasının Tiflisdə yerləşdiyi bina, mollanəsrəddinçilər – Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Əliqulu Qəmküsar, Əbdürrəhim bəy Haqverdiyev, Cahangir Həsənov, Məmmədəli Səfərov, Məmməd Səid Ordubadi, Oskar Şmerlinq və Əzim Əzimzadənin fotoları asılıb. Burada "Molla Nəsrəddin"in ənənələrini davam etdirən "Kirpi" və "Bəhlul" satirik jurnallarının bir sıra nömrələri də nümayiş olunur.

"Molla Nəsrəddin" jurnalının saralmış səhifələri arasında Mirzə Cəlilin məqalələri, felyetonları və karikaturalar öz əzəmətini qoruyur. Bu jurnallar, bir dövrün səsi, bir xalqın dili idi. Jurnalın hər səhifəsində bir tarix yatır, hər məqalədə bir mübarizə ruhu var.

### Sözlə fırça arasında körpü

Azərbaycan karikatura sənətinin banisi, Xalq rəssamı Əzim Əzimzadənin Xatirə Muzeyi də təsviri sənət tariximizə dair eksponatlarla yanaşı, mətbuat salnaməmizin parlaq səhifələrini də əks etdirir. Əzim Əzimzadə öz fırçası ilə ictimai problemləri, sosial ədalətsizlikləri və xalqın arzularını ifadə edirdi. Muzeydə nümayiş etdirilən karikaturalar və digər əsərlər rəssamın xalqın dərdinə və sevincinə necə dərin diqqət yetirdiyini göstərir.

Əzim Əzimzadənin muzeydə nümayiş etdirilən rəsmləri ilə bu məkanda qorunan mətbu yazılar arasında etibarlı körpü görürük. Müəllifin "Molla Nəsrəddin" jurnalında yayımlanan karikaturaları bir dövrün əks-sədasıdır.

Əzim Əzimzadənin yaratdığı hər bir rəsmdə bir məqalənin, felyetonun, satira nümunəsinin ruhu, hər bir bədii mətndə isə bir rəsmin canlılığı var. Bu əsərlər, sadəcə, bir sənətkarın işləri deyil, eyni zamanda mətbuat tariximizin dəyərli nümunələridir.

### Sözlərin əbədiyyəti

Tarixi romanlar müəllifi Məmməd Səid Ordubadi də həmişə mətbuatla əməkdaşlıq edib, müxtəlif mövzu və janrlarda qələmə aldığı əsərlərini oxuculara çatdırıb. Ədibin Bakıdakı xatirə muzeyində onun mətbu fəaliyyətini əks etdirən eksponatlar da nümayiş etdirilir. Ordubadinin qələmindən çıxan hər bir yazı xalqımızın taleyinə işıq saçan sözlərin gücünü simvolizə edir.

Muzeyin baş fond mühafizi, direktor vəzifəsini müvəqqəti icra edən Rasimə Əhmədova söyləyir ki, Məmməd Səid Ordubadinin istər ədəbi yaradıcılığında, istərsə də mətbu fəaliyyətində "Molla Nəsrəddin" jurnalı ilə əməkdaşlıq xüsusi yer tutur: "Ədib jurnalın 4-cü nömrəsindən başlayaraq, yəni 25 ilə yaxın bir müddətdə dərgidə iştirak edib. "Hərdəmxəyal", "Divanə", "Qardaşım İbrahimə" və s. imzalarla jurnalda onlarla felyeton çap etdirib. Jurnalın həmin nömrələrindən bəziləri muzeydə qorunur. Bundan başqa, muzeyin ekspozisiya otağında M.S.Ordubadinin "Kommunist", "Hümmət" və "Yeni yol" qəzetlərinin redaksiyalarında çəkilmiş fotoları da nümayiş olunur".






Milli mətbuatımızla bağlı sənədlərin muzeylərdə nümayişi, sadəcə, kağız parçasından ibarət deyil. O, bir millətin səsinin, arzularının və mübarizələrinin aynasıdır. Bu səhifələrdə xalqın dərdi, sevinci, ümidləri, həmçinin sıxıntıları, ümidsizlikləri var...

### Bizi deyib gələnlər...

Ömrünü həm də milli mətbuatımızın inkişafına həsr edən Cəlil Məmmədquluzadənin Bakıdakı ev-muzeyində bu görkəmli ədiblə yanaşı, mətbuat salnaməmizdən yadigarları qorunur. Mətbuatımızın bayramı ərəfəsində muzeydə olduq. Bu məkan, sadəcə, bir ev deyil, bir dövrün, bir xalqın düşüncələrinin və arzularının səhnəsidir. Burada milli mətbuatımızla bağlı eksponatlar xüsusi maraq doğurur. Muzeyin memorial otağındakı vitrinlərdə səliqə ilə yerləşdirilmiş qəzetlər, jurnallar və məqalələr zamanın qızıl sətirləri kimi göz qamaşdırır.

Muzeyin elmi işçisi Fazilə Hümbətova deyir ki, Mirzə Cəlilin ocağında "Molla Nəsrəddin" jurnalının bütün nömrələri qorunub saxlanılır. Jurnala abunə yazılan ölkələr xüsusi xəritədə nöqtələr şəklində göstərilib.

Böyük ədib öz qələmi ilə xalqın problemlərini, sosial ədalətsizlikləri və maarifçilik ideyalarını vətəndaş yanğısı ilə ifadə edib. Bu yazılar muzeyin divarları arasında sanki hələ də səslənir, ziyarətçilərə o dövrün çətinliklərini və ümidlərini xatırladır.




Muzeydə Cəlil Məmmədquluzadənin nigaran ruhu dolaşır. Bu nigaranlığın səbəbi işıqlı gələcəyi üçün yorulub usanmadan çalışdığı xalqının taleyidir.

Yazıçının iş masası, şəxsi əşyaları və qələmini gəzdirdiyi kağızlar arasında dolaşarkən Mirzə Cəlilin həyatına və yaradıcılığına yaxın olmağın həyəcanını yaşayırıq. Bu məkan, sadəcə, ədibin şəxsi əşyalarını deyil, onun fikir dünyasını da bizə tanıdır...

Muzeyin direktoru İradə Əzimzadə bildirir ki, vaxtilə dövrün aparıcı mətbuat orqanlarında Əzim Əzimzadənin sənət yolu ilə bağlı müxtəlif səpkili materiallar dərc olunub. Həmin informasiyaların yer aldığı qəzetlər də muzeydə qorunur:



"Onu da deyim ki, 1940-cı ildə Moskvada keçirilən sərgidə Ə.Əzimzadənin 1200-ə yaxın əsəri nümayiş etdirilib. Bu haqda məlumat "Kommunist" qəzetində işıqlandırılıb. Qəzetin həmin nüsxəsi də muzeydə nümayiş etdirilir. Muzeydə qorunan maraqlı eksponatlardan biri də 1927-ci ildə rəssamın yaradıcılığının 20 illiyi münasibətilə atlaz parça üzərində həyat və yaradıcılığı ilə bağlı qeyd olunmuş məlumatlardır".

***

Bəli, bəzi muzeylər həm də mətbuat salnaməmizin qorunduğu məkanlardır. Həmin eksponatlarla tanışlıq ziyarətçini zamanın o üzünə səyahətə aparır və dövrün hərtərəfli mənzərəsini gözlərimiz önündə canlandırır. Bu eksponatlarla tanışlıq həm də bizlərə onu gələcək nəsillərə ötürmək vəzifəsini xatırladır.

**Nurəddin Məmmədli**

## MEK-də istifadəçilər üçün xidmətlər

AMEA-nın Mərkəzi Elmi Kitabxanasında (MEK) rəqəmsallaşdırma sahəsində görülən işlər sayəsində elektron kitab bazası zənginləşir.

Kitabxanadan bildirilib ki, Reproqrafiya şöbəsi istifadəçilərin müasir informasiya sistemindən yararlanmasını təmin etmək üçün xüsusi xidmətlər təklif edir. Almaniya istehsalı olan xüsusi "By Metis" və "Zeutschel" aparatları vasitəsilə hər növ çap məhsullarını rəqəmsallaşdırmaq mümkündür. Bu, istifadəçilərə daha geniş və rahat şəkildə elmi materiallara çıxış imkanı yaradır.

Son bir neçə ay ərzində çoxlu sayda kitab, məqalə və avtoreferat konvertasiya olunaraq PDF formatında MEK-in bazasında yerləşdirilib. Həmçinin Ümummilli lider Heydər Əliyevin zəngin siyasi irsini əks etdirən kitablar, dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 illiyi münasibətilə ədəbiyyatlar, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri olan Məhəmməd Əmin Rəsulzadə haqqında kitablar, Qarabağ müharibəsi iştirakçıları və şəhidləri haqqında kitab, müxtəlif mövzulara aid xarici və Azərbaycan dillərində ədəbiyyat nümunələri rəqəmsallaşdırılaraq elektron bazaya daxil edilib.

Rəqəmsallaşdırma işlərinin həyata keçirilməsi MEK-in informasiya təminatında müasir texnologiyalardan istifadəyə geniş imkanlar açır.

## Respublika Uşaq Kitabxanası yeni nəşrlər almaq üçün müsabiqə elan edib

F.Köçərli adına Respublika Uşaq Kitabxanası fondunu yeni nəşrlərlə komplektləşdirmək məqsədilə "Nəşrlərin satınalınması müsabiqəsi" elan edib.

Kitabxanadan bildirilib ki, müsabiqəni yeni tərkibdə təsdiq olunan "Nəşriyyat məhsullarının satınalınması üzrə komissiya" həyata keçirəcək. Komissiya tərəfindən seçilən nəşrlərdən minimum 5 nüsxə alınacaq.

İştirakçılar tərəfindən nəşrlər iyulun 26-dək komissiyaya təqdim olunmalıdır. Müsabiqə üçün müəyyən edilmiş müddət başa çatdıqdan sonra təqdim olunan nəşrlər qəbul edilmir.

Buraxılış məlumatında qiyməti göstərilməyən nəşrlərin dəyəri onun texniki göstəricilərinə, poliqrafik keyfiyyətinə görə mövcud bazar şərtləri əsasında müəyyənləşdiriləcək. Məzmun və poliqrafik baxışından qüsurlu, ümumi tirajı 50-dən aşağı olan nəşrlərin satınalınmasına yol verilmir.

Müsabiqəyə xarici dillərdə (əsasən ingilis, rus, türk, alman, ərəb) nəşrlər də təqdim oluna bilər. Təqdim edilən nəşrlərdə uşaq ədəbiyyatına üstünlük veriləcək.

Müsabiqəyə təqdim olunan nəşrlərin nümunə nüsxələri geri qaytarılmır.

## Kitabxanada inklüziv mühit – əl işləri sərgisi

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasında növbəti sərgi açılıb. Budəfəki sərgidə həvəskar rəssam Ülkər Baxışovanın əl işləri nümayiş olunur.

Ülkər Baxışova 1987-ci ildə Ağdaş rayonunun Dəhnəxəlil kəndində anadan olub. Orta təhsilini həmin kənddə alıb. Fiziki məhdudiyyətli olsa da, çalışmağa, sənətə, yaratmağa böyük həvəsi var.

O, əlillər üçün peşə məktəbində kompüter dizaynı ixtisası üzrə təhsil alıb, həmçinin rəsm kursunu bitirib. Bundan başqa, toxumağı və tikməyi də öyrənib. Müxtəlif mövzularda əl işləri ilə çoxsaylı sərgilərdə iştirak edib. Saplarla işləmək, kətan üzərində rəsmlər çəkmək ruhunun təcəssümüdür.

Rəsm əsərlərini yaradarkən müxtəlif mövzulara toxunur, ən çox isə Azərbaycanın qədim incəsənətini yeni, modern üslubda yansıdaraq işləməyi sevir.

Sərgidə rəssamın "Naməlum qadın", "İstanbul. Ayasofya məbədi", "Bakımız", "Qədim Qobustan. Yallı", "Quşların eşqi", "Üzüm səbəti", "Rəqqasə" və "Qoşa minarəli məscid (Əmircan)" adlı əl işləri nümayiş olunur.



## Xatirə təqvimi — 20 – 23 iyul

### Azərbaycan

**20 iyul 1903** – Əməkdar incəsənət xadimi Bəxşi Həsən oğlu Qələndərli (1903 – 14.9.1985) Xankəndidə doğulub. C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında baş rejissor, C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında rejissor işləyib.

**20 iyul 1933** – Əməkdar rəssam Məmmədəli Namazəli oğlu İsmayılov (1933 – 21.8.2010) Naxçıvan şəhərində anadan olub. Naxçıvan Dövlət Musiqili Dram Teatrında quruluşçu rəssam işləyib.

**20 iyul 1936** – Tarixçi, arxeoloq, AMEA-nın müxbir üzvü Vəli Hüseyn oğlu Əliyev (1936–2020) Şəki rayonunun Daşbulaq kəndində anadan olub.

**20 iyul 1946** – Əməkdar mədəniyyət işçisi, rejissor Rafiq Ağahüseyn oğlu Dadaşov (1946–2017) Bakıda anadan olub. Bir sıra filmlərin ("Yol əhvalatı", "Qətl günü" və s.) ikinci rejissoru olub, sənədli filmlər çəkib.

**20 iyul 1948** – Xalq artisti, aktyor, rejissor Ramiz Hacıağa oğlu Əzizbəyli (1948 – 9.6.2021) Bakıda anadan olub. Filmlərdə, televiziya tamaşalarında maraqlı rollar oynayıb, "Pirverdinin xoruzu", "Bəxt üzüyü", "Yalan" bədii filmlərinə quruluş verib. Bir çox filmlərin səsləndirilməsində iştirak edib.

**20 iyul 2001** – Prezident Heydər Əliyev məşhur xanəndə, Xalq artisti Xan Şuşinskinin 100 illik yubileyi haqqında sərəncam imzalayıb.

**20 iyul 2021** – Əməkdar mədəniyyət işçisi, teatr və kino xadimi Zemfira Baba qızı Babayeva (17.11.1954 – 2021) vəfat edib.

**21 iyul 1950** – Xalq artisti Məmmədbağır Bağırzadə (1950 – 30.10.2005) Bakının Nardaran kəndində doğulub. Xalq və bəstəkar mahnılarının unudulmaz ifaçısı, populyar mahnıların ("Kimlərə qaldı dünya?", "Yadıma düşdü") müəllifi olub.

**21 iyul 1964** – Əməkdar mədəniyyət işçisi Nairə Hafiz qızı Sadıxova (1964 – 4.9.2021) Bakıda doğulub. Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin direktor müavini olub.

**21 iyul 1981** – Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi şair, dramaturq Hüseyn Cavidin 100 illiyi haqqında qərar qəbul edib. Qərarda Bakı və Naxçıvan şəhərlərində Hüseyn Cavidin xatirə muzeylərinin yaradılması, ədibin adının əbədiləşdirilməsi ilə bağlı digər tədbirlər nəzərdə tutulmuşdu.

**22 iyul 1884** – Filosof və tarixçi, Azərbaycan Elmlər Akademiyasının akademiki Aleksandr Osipoviç Makovelski (1884-1969) anadan olub. 1920–1960-cı illərdə Bakı Dövlət Universitetində dərs deyib, akademiyanın Fəlsəfə İnstitutunun direktoru olub.

**22 iyul 1941** – Xalq artisti, diktor Yusif Mehdi oğlu Muxtarov (1941 – 25.4.2010) Sabirabad rayonunun Kürkəndi kəndində doğulub. Filmlərdə, teletamaşalarda çəkilib, dublyajda iştirak edib.

**22 iyul 1949** – SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Azərbaycan Dövlət Akademik Dram Teatrı "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilib. Azərbaycan milli teatrının 75 illik yubileyi münasibətilə həmçinin S.Ruhulla, M.A.Əliyev, M.Davudova SSRİ Xalq artisti adına layiq görülüblər.

**22 iyul 1949** – Xalq artisti Yuri Nikolayeviç Baliyev (1949–2018) anadan olub. Akademik Rus Dram Teatrının aktyoru olub, filmlərə ("Ovsunçu", "Hökmdarın taleyi" və s.) çəkilib.

**22 iyul 1959** – Şair Akif Səməd (Akif Səməd oğlu Məmmədov; 1959–2004) Qazax rayonunun Astanbəyli kəndində anadan olub.

**23 iyul 1883** – Ədəbiyyatşünas və publisist Abdulla Sur (Abdulla Ağa Məhəmməd oğlu Məhəmmədzadə; 1883 – 8.5.1912) anadan olub.

**23 iyul 1916** – Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı, Dövlət mükafatı laureatı Maral Yusif qızı Rəhmanzadə (1916 – 16.3.2008) Bakıda anadan olub. Əsərləri Moskvada Tretyakov qalereyasında, digər xarici muzeylərdə saxlanılır.

**23 iyul 1927** – Əməkdar rəssam Hafiz Əliabbas oğlu Zeynalov (1927 – 2.5.1996) Bakıda anadan olub. Tarixi mövzulu kompozisiyalar, tanınmış şairlərin portret-obrazları, məişət janrlı tablolar və natürmortların müəllifidir.

**23 iyul 2011** – Tanınmış xanəndə, Əməkdar artist Sabir Nüsrət oğlu Mirzəyev (1942-2011) vəfat edib. Azərbaycan Dövlət Filarmoniyasının solisti olub. Muğam və xalq mahnılarının mahir ifaçısı olub.

### Dünya

**20 iyul 1304** – İtaliya intibahının görkəmli nümayəndəsi, şair Françesko Petrarka (Francesco Petrarca; 1304–1374) anadan olub.

**20 iyul 1864** – İsveç şairi, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1931) Erik Karlfeldt (Erik Axel Karlfeldt; 1864–1931) anadan olub.

**20 iyul 1895** – Macar və amerikan rəssamı, fotoqraf və bəstəkar, konstruktivizm cərəyanının nümayəndəsi Laslo Mohoy-Nad (Laszlo Moholy-Nagy; 1895–1946) anadan olub.

**20 iyul 1924** – Rus rejissoru, SSRİ Xalq artisti Tatyana Mixaylovna Lioznova (1924–2011) anadan olub. Filmləri: "Baharın on yeddi anı" teleserialı, "Karnaval" və s.

**21 iyul 1893** – Alman yazıçısı Hans Fallada (əsl adı Rudolf Wilhelm Friedrich Ditzen; 1893–1947) anadan olub. Əsərləri: "Anton və Herda", "Sonra nə, balaca adam?", "Canavarlar içində canavar" və s.

**21 iyul 1899** – Amerika yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1954) Ernest Heminquey (Ernest Miller Hemingway; 1899 – 2.7.1961) anadan olub. Əsərləri: "Kişisiz qadınlar", "Əlvida, silah", "Əcəl zəngi kimin üçün çalınır" (romanlar), "Qoca və dəniz" (povest) və s.

**21 iyul 1910** – Rus rəssamı, tarixi mövzuda monumental əsərlər müəllifi Vladimir Serov (1910–1968) anadan olub. SSRİ Rəssamlar İttifaqına rəhbərlik edib.

**21 iyul 1933** – Amerika yazıçısı Con Qardner (John Champlin Gardner; 1933–1982) anadan olub. "Qrendel" romanı ilə məşhurlaşıb, yazıçılıq peşəsini öyrənənlər üçün "Ədəbiyyat sənəti" əsərinin müəllifidir.

**22 iyul 1889** – Amerika rejissoru, qorxu filmlərinin yaradıcılarından Ceyms Veyl (James Whale; 1889–1957) anadan olub. Filmləri: "Köhnə qaranlıq ev", "Gözəgörünməz adam", "Dəmir maskalı adam" və s.

**22 iyul 1926** – Rus yazıçısı Sergey Baruzdin (1926–1991) anadan olub. Uşaqlar üçün kiçik hekayələrin müəllifidir.

**22 iyul 1934** – Amerika aktrisası Luiza Fletçer (Louise Fletcher; 1934 – 23.9.2022) anadan olub. "Oskar" mükafatçısıdır (1975, "Qu quşu yuvası üzərindən uçuş", tibb bacısı).

**23 iyul 1884** – Alman aktyoru, "Oskar" mükafatının ilk əcnəbi laureatı Emil Yanniqs (1884–1950) anadan olub.

**23 iyul 1888** – Amerika yazıçısı Reymond Çandler (Raymond Chandler; 1888–1959) anadan olub. Əsərləri əsasında "Dərin yuxu", "İkiqat sığorta" və s. filmlər çəkilib.

**Hazırladı: V.Orxan**

# Minaaxtaranlar haqqında film Bolqarıstanda festivalda nümayiş olunub

Tanınmış kinorejissor, ssenarist, Venesiya festivalının "Gümüş şir" mükafatçısı Murad İbrahimbəyovun "ANAMA" tammetrajlı sənədli filmi Bolqarıstanda IV "Rhodope" Beynəlxalq Sənədli Film Festivalında nümayiş olunub. Festival 11-14 iyul tarixlərində Bolqarıstanın Smolyan şəhərində keçirilib.




Bu barədə rejissor özü məlumat verib. Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) fəaliyyətinə həsr olunan filmin operatoru Nadir Mehdiyev, səs rejissoru Orxan Ağalarov, montaj rejissoru Elşad Rəhimov, prodüseri Tofiq Musayevdir.

Film işğaldan azad edilmiş yurdunun hər qarışında mənfur düşmən tərəfindən basdırılmış minaları təmizləyən fədakar insanlar haqqındadır. Rejissor deyib ki, Azərbaycan dünyada minalarla ən çox çirklənmiş ölkələrdən biridir. İnsanlar öz torpaqlarını bu ölümsaçan təhlükədən təmizləyirlər.

Qeyd edək ki, "Rhodope" festivalı sənədli film rejissorlarına öz işlərini nümayiş etdirmək, daha çox öyrənmək və beynəlxalq kino peşəkarlarının fikirlərini eşitmək imkanı yaradır. Festival Almaniyanın Höte İnstitutunun Bolqarıstandakı nümayəndəliyinin dəstəyi ilə təşkil olunub.

**Lalə**

# Gürcüstan il ərzində 8 milyona yaxın turist gözləyir

Gürcüstanın beynəlxalq hava limanları (Tbilisi, Kutaisi, Batumi) cari ilin yanvar-iyun aylarında 3,2 milyondan çox sərnişinə xidmət göstərib ki, bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 30 faiz çoxdur. Bu barədə Gürcüstan İqtisadiyyat Nazirliyi məlumat yayıb.



Məlumata görə, Gürcüstanın beynəlxalq bazarlarda tanıdılması istiqamətində aparılan aktiv marketinq kampaniyaları nəticəsində həm turist axını, həm də sərnişin axını xeyli artıb. 2024-cü ilin ilk altı ayında Gürcüstanın hər üç beynəlxalq hava limanı 3 milyondan çox sərnişinə xidmət göstərib ki, bu da indiyədək əldə edilən ən böyük nəticədir.

İlin ilk altı ayında Gürcüstan hava limanları vasitəsilə yüklərin daşınmasının həcmi 23 faiz artaraq 11 milyon tona çatıb.

Gürcüstan hakimiyyəti bu il ölkəyə 7,9 milyon xarici turistin ziyarət edəcəyini, turizm gəlirlərinin isə 4,3 milyard dollardan (2023-cü il) 4,5 milyard dollara artacağını gözləyir.

# Gündə ən azı bir dəfə gülmək

Yaponiyanın Yamaqata prefekturasının parlamenti sakinləri fiziki və psixoloji sağlamlığı möhkəmləndirmək üçün gündə ən azı bir dəfə gülməyə təşviq edən qətnamə qəbul edib.



Bildirilir ki, qətnamə müəllifləri Yamaqata Universiteti Tibb fakültəsinin araşdırmasına istinadən gülən insanların erkən ölüm riskinin daha az olduğunu aşkar ediblər.

Yerli parlament hər ayın 8-ni "sağlamlıq üçün gülüş günü" elan edib. Həmçinin işəgötürənlərə iş yerində gülüş dolu atmosfer yaratmaq tövsiyə olunub.

Qətnamə prefektura məclisinin bəzi deputatları tərəfindən tənqid edilib. Onlar bəyan ediblər ki, bu, xəstəlik və ya digər səbəblərdən gülməkdə çətinlik çəkənlərin hüquqlarını pozur.

# 90-dan yuxarı olanlar...

## İtaliya sürətlə qocalır

Qarşıdakı üç il ərzində İtaliyada 90 yaşdan yuxarı bir milyon insanın olacağı proqnozlaşdırılır.



Ölkənin Səhiyyə Nazirliyinin "Italia Longeva" Aktiv Yaşlanma və Uzunömürlülük Assosiasiyası diqqəti 20 ildən sonra sayı 19 milyona çatacaq yaşlı (65 yaşdan yuxarı) insanlara yardım məsələsinə yönəldib.

Son 10 ildə evdə qulluqdan faydalanan 65 yaşdan yuxarı yaşlıların sayı iki dəfədən çox artaraq 550 min nəfərə yüksəlib. Hazırda ölkədə yaşlılara evdə qulluğa böyük ehtiyac var. Növbəti 20 il ərzində tək yaşayan və təcridolunma riski altında 65 yaşdan yuxarı təxminən 6 milyon insanın olacağı proqnozlaşdırılır.

# İşləri süni intellektə yükləyirlər

## Təkcə "ChatGPT"də 180 milyon insan qeydiyyatdan keçib

Generativ süni intellekt (Artificial Intelligence – AI) modelləri iş yerlərində gündən-günə daha çox yayılır. 2024-cü ildə aparılan araşdırmaya görə, "ChatGPT" və "Google Gemini" chatbot tətbiqləri xüsusilə populyardır.

Süni intellektdən istifadə işdə və ya asudə vaxtda sadə tapşırıqları yerinə yetirməkdən tutmuş əyləncə üçün məzmun yaratmağa qədər bir çox sahələrdə yayılıb.

"İş alətləri üçün ən yaxşı 100 generativ süni intellekt" (flexos.work saytı) siyahısında ABŞ-də yerləşən "OpenAI"nin "ChatGPT" süni intellekt firması birinci yerdədir.

"Google" şirkətinin əvvəllər "Bard" kimi tanınan "Gemini" tətbiqi ikinci yerdə, onlayn qrafik dizayn platforması üçün generativ alət olan "Canva AI Suite" isə üçüncü yerdə qərarlaşıb.

İlk onluqda AI yazı yoldaşı "Quillbot", işdə ən çox istifadə edilən tədqiqat chatbotu "Perplexity AI", süni intellektlə işləyən kod tamamlama vasitəsi olan "GitHub Copilot", təsvir yaratma aləti "Leonardo AI", yazı yoldaşı "Grammarly AI" və generativ süni intellekt aləti "Midjourney" də var.

Siyahıda ən çox istifadə edilən alətlərin 70 faiz payla GPT kimi tanınan generativ, əvvəlcədən öyrədilmiş transformatorlar olduğu ortaya çıxıb. Hazırda "ChatGPT" 180 milyon daimi istifadəçiyə malikdir. Onların 12 faizi




ABŞ-dəndir, 600 milyon ziyarətçi isə platformadan aylıq istifadə edir.

Dünyada süni intellekt bazarı indiyədək 196 milyard dollar dəyərə çatıb və növbəti illərdə dəfələrlə artacağı təxmin edilir.

# Xronoqraf

**22 iyul** Azərbaycanda Milli Mətbuat Günüdür. 22 iyul 1875-ci ildə Azərbaycan milli mətbuatının müjdəçisi – Həsən bəy Zərdabinin redaktoru olduğu "Əkinçi" qəzetinin ilk sayı çapdan çıxıb.

# Tarixdə bu gün



## Olaylar, faktlar (20 – 23 iyul)

### 622 il əvvəl...



**20 iyul 1402-ci ildə** Ankara yaxınlığında Əmir Teymurun qoşunları ilə Sultan İldırım Bəyazidin başçılıq etdiyi Osmanlı ordusu arasında döyüş olub. İki türk sərkərdəsinin üz-üzə gəldiyi döyüşdə Teymur qələbə qazanıb, Bəyazid əsir götürülüb. 1405-ci ildə Əmir Teymurun ölümündən sonra qurduğu dövlət süquta doğru getdi, Osmanlı dövləti isə güclənməyə başladı.

### 250 il əvvəl...

**21 iyul 1774-cü ildə** Rusiya ilə Osmanlı arasında 1768-ci ildən davam edən müharibə Kiçik Qaynarca sülhü ilə başa çatıb. Osmanlı Krım xanlığının müstəqilliyini, Azov dənizinin, Moldaviya və Valaxiyanın (indiki Rumıniya ərazisi) Rusiyanın nəzarətinə keçməsini tanımalı oldu.

### 193 il əvvəl...

**21 iyul 1831-ci ildə** Belçika Niderland Krallığından ayrılaraq müstəqilliyini elan edib. XVI əsrdə İspaniyanın nəzarətinə düşən Belçika torpaqları 1714-cü ildə Avstriya tərəfindən işğal olunmuş, 1815-ci ildə isə Niderlandın nəzarətinə keçmişdi.

### 96 il əvvəl...

**21 iyul 1928-ci ildə** Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Soveti "Yeni türk əlifbasının icbari və qəti olaraq tətbiq olunması" haqqında qərar qəbul edib. 1929-cu il yanvarın 1-dən Azərbaycan SSR-də latın qrafikalı əlifbaya keçid başlandı.

### 50 il əvvəl...



**20 iyul 1974-cü ildə** Kiprin yunan rəhbərliyinin adanın şimalında yaşayan türklərə qarşı başlatdığı deportasiya və enozis (Yunanıstana birləşdirmə) siyasətinə cavab olaraq Türkiyə adaya hərbi kontingent yeridib. Üç əsr Osmanlının tərkibində olan Kipr Balkan müharibəsindən (1878) sonra Britaniyanın nəzarətinə keçmişdi. 1960-cı ildə Kipr müstəqilliyini elan etsə də, yunan və türk icması arasında münaqişə adanı faktiki iki yerə bölmüşdü. Türkiyə ordusunun 20 iyul hərəkatı Kipr türklərinin xilası oldu. 1975-ci ildə Kipr Türk Federal Dövləti quruldu, 1983-cü ildə dövlətin adı dəyişdirilərək Şimali Kipr Türk Cümhuriyyəti oldu. 20 iyul ŞKTC-də Barış və Özgürlük Bayramı kimi qeyd olunur.

### 31 il əvvəl...

**23 iyul 1993-cü ildə** Ermənistanın silahlı qüvvələri Ağdam şəhərini, rayonun Xıdırlı, Sarıcalı, Qiyaslı və Muradbəyli kəndlərini işğal edib. Sonrakı günlərdə erməni qüvvələri rayonun üçdə ikisini işğal etdi. 27 ildən artıq işğal dövründə yerlə yeksan edilən Ağdam şəhəri və rayonun düşmən əlindəki kəndləri 44 günlük Vətən müharibənin nəticəsi olaraq, 2020-ci il noyabrın 20-də azad edildi.

### 23 il əvvəl...

**22 iyul 2001-ci ildə** Prezident Heydər Əliyevin fərmanı ilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılıb.

**Hazırladı: V.Orxan**

# "Euronews" Astanada regional nümayəndəlik açacaq

Qazaxıstanın mədəniyyət və informasiya naziri Aida Balayeva "Euronews"un Direktorlar Şurasının sədri Pedro Varqas David ilə görüşüb. Görüş zamanı Qazaxıstanın "Euronews" ilə əməkdaşlığı haqqında memorandum imzalanıb.



Memorandum paytaxt Astanada "Euronews"un regional nümayəndəliyinin açılmasını nəzərdə tutur.

"Euronews"un regional nümayəndəliyinin açılması beynəlxalq auditoriyaya Qazaxıstanın iqtisadi, siyasi, sosial və mədəni inkişafını hərtərəfli təşviq etmək üçün gözəl imkanlar yaradacaq", – deyə nazir Aida Balayeva qeyd edib.

Tərəflər, həmçinin media sahəsinin inkişafı və beynəlxalq informasiya mübadiləsinin gücləndirilməsinə yönəlmiş birgə layihə və təşəbbüsləri həyata keçirməkdə maraqlı olduqlarını bildiriblər.

# Özbəkistanda şəhərlər üçün ekoloji planlar hazırlanır

Özbəkistanın Ekologiya, Ətraf Mühitin Mühafizəsi və İqlim Dəyişikliyi Nazirliyinin nəzdindəki Milli İqlim Dəyişikliyi Mərkəzi şəhərlər üçün ilk ekoloji planlarını (Environmental Master Plans) təqdim edib.



Pilot layihə kimi Buxara və Səmərqənd seçilib. Onlar üçün planlar aidiyyəti nazirlik, bu şəhərlərin hakimiyyətləri və digər maraqlı idarələr tərəfindən işlənərək hazırlanıb.

Ekoloji plan ətraf mühitə mənfi təsirlərin azaldılmasına, ekoloji vəziyyətin yaxşılaşdırılmasına və şəhər sakinlərinin həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş strateji tövsiyələr və tədbirlər toplusundan ibarət sənəddir.

Plan şəhərin mövcud ekoloji vəziyyətini təsvir edir və o, bir sıra göstəricilərinə görə qiymətləndirilir. Bu qiymətləndirmə prosesi izləməyə, ən yaxşı təcrübələri müəyyənləşdirməyə kömək edəcək. Yerli bələdiyyələrlə birlikdə əhalini məlumatlandırmaq və layihəyə cəlb etmək üçün xüsusi kampaniya təşkil edilib.

# Dünyadan xəbərləri yoxdur...

Dünyadan tamamilə təcrid olunmuş şəkildə yaşayan "Mashco-Piro" adı verilmiş qəbilənin üzvləri Perunun cənub-şərqindəki Amazon meşələrində görüntülənib. Onların şəkli meşədə aparılan ağackəsmə işlərindən bir neçə kilometr aralıda çəkilib.



Yerli əhalinin hüquqları üçün çalışan "Survival International" qeyri-hökumət təşkilatı tərəfindən Monte Salvado bölgəsində çəkilmiş fotoşəkillərdə qəbilənin 50-dən çox üzvü görünür. Təşkilat nümayəndələri yaxınlıqdakı Puerto Nuevo bölgəsində də 17 nəfərdən ibarət fərqli bir qrup aşkar ediblər.

Amazon meşələrində ağackəsmə işlərinin yerli əhalini öz torpaqlarından didərgin saldığını bildirən "Survival International" könüllüləri bölgədə fəaliyyət göstərən bütün şirkətlərin lisenziyalarının ləğv edilməsini və torpaqların "Mashco-Piro" əhalisinə təhvil verilməsini tələb edir.

750-dən çox üzvü olduğu təxmin edilən və Perunun cənub-şərqindəki meşələrin dərinliklərində yaşayan "Mashco-Piro" qəbiləsinin dünyadan bixəbər ən böyük qəbilə olduğu bildirilir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 1619
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641